Bu bir xalq qəzetidi
ƏDALƏT

## "Ermənistan qoşunları işğal etdiyi əraziləri tərk etmədən regionda sülhün bərqərar olması mümkünsüzdür"



**"Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar 2020-ci il sentyabrın 29-da BMT Təhlükəsizlik Şurasında qapalı məsləhətləşmələrin keçirilməsini ümumən təqdir edirik".**

Bunu APA-ya açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. H. Hacıyev bildirib ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib: "Ermənistan bu günə qədər həmin qətnamələri icra etməyib. Bu ilk növbədə Təhlükəsizlik Şurasının özünə qarşı hörmətsizlikdir.

Təhlükəsizlik Şurasının üzvləri bütün müvafiq müzakirələr zamanı həmin qətnamələrin icrasının vacibliyi məsələsini qabartmalıdırlar. Təhlükəsizlik Şurasının qətnamələri icra edilmədən, Ermənistan qoşunları Azərbaycanın işğal etdiyi ərazilərini tərk etmədən regionda sülhün bərqərar olması mümkünsüzdür".

## *Çavuşoğlu: Sülhün olması üçün Ermənistan işağl etdiyi ərazilərdən dərhal çıxmalıdır*



*Ermənistan beynəlxalq hüququ saya salmır. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu açıqlamasında deyib.*

*Onun sözlərinə görə, Türkiyə hər zaman bütün variantlarda Azərbaycana yardım göstərməyə hazırdır:*

*"Dağlıq Qarabağ münaqişəsi 30 ildir ki öz həllini tapmır, indiyə kimi müxtəlif təkliflər olsa da, bu məsələ öz həllisini tapmayıb. BMT qətnamələr yerinə yetililməldiir. Təssüflər ki, bu qətnamələrin heç birinə məhəl qoyulmur. Məhz bu səbəbdən də Azərbaycan öz torpaqlarını özü azad etmək istəyir. Çavuşoğlu bildirib ki, Azərbaycan başqa ərazidə deyil, öz ərazisində mübarizə aparır: Buna görə də Azərbaycan və Ermənistana eyni münasibətlə yanaşmaq olmaz.*

*Çavuşoğlu guya Türkiyənin Azərbaycana silahla dəstək göstərməsi ilə bağlı bildirib ki, buna ehtiyac yoxdur və Prezident İlham Əliyev də bunu qeyd edib. Həqiqətəndə Azərbaycanın buna ehtiyacı yoxdur. Əksinə olaraq Ermənistan başqa ölkələrdən dəstək alaraq Azərbaycana qarşı hərbi təxribat həyata keçririr:*

*Dünya ictimaiyyəti Azərbaycanın narazıçılığını Türkiyə onları başa düşdüyü kimi başa düşməlidir. Ermənistan bilindiyi kimi işğalıçı siyasətini davam etdirir və bununla yanaşı yaxın şərqdən gətirdiyi erməniləri münaqişəyə cəlb edir. Münaqişənin həll olunmaması Ermənistanın marağındadır. Təssüflər olsun ki, qərb ölkələrinin bir çoxu olayı yolla dəstəkləyirlər:*

*"Bir şeyi də qeyd edim ki, bölgədə sülhün olması üçün, ilk növbədə atəşkəs elan olunmalı və Ermənistan işağl etdiyi ərazilərdən dərhal çıxmalıdır. Ermənistanın münaqişəni diplomatik yolla həll etmək istəyi yoxdur. Türkiyə və Azərbaycan rəsmilər davamlı olaraq bölgədəki vəziyyələ bağlı əlaqə saxlayırlar".*

## Rusiyalı ekspert: İlham Əliyev Paşinyanı yerində otuzdurdu



**"Rossiya 1" telekanalının "60 dəqiqə" verilişində Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanı yerində otuzdurdu.**

Trend-in məlumatına görə, bunu rusiyalı hərbi ekspert İqor Korotçenko öz "Twitter" səhifəsində yazıb. O, ötən gün Rusiya televiziyasında baş tutmuş debatı şərh edib: "Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ hadisələri ilə bağlı eksklüziv şərhlər etdiyi "60 dəqiqə" verilişinin canlı yayımını izlədim. Əliyev Paşinyanı yerində otuzdurdu - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məktəbi məhz budur".

O, daha bir paylaşımında isə N.Paşinyanın dünya liderlərinə zənglərini xatırladıb: "Paşinyan hər kəsə zəng elədi? Bəs Sorosa zəng elədi?"

## *MM Sədri: "Azərbaycan tarixində yeni zəfər tarixi yazılır"*

Bax:səh-2

## Mehriban Əliyeva: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"



**Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!**

Bu sözləri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Facebook" hesabında yazıb.

Mehriban Əliyeva qeyd edib:

"Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək, uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!"

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 133 (5793) 1 oktyabr 2020-ci il
Qiyməti 30 qəpik

*Əbülfət MƏDƏTOĞLU*
*Əməkdar jurnalist*

## SÜLHÜN YOLU...

### Şuşada dalğalanacaq bayrağımızın altından keçəcək

Bax:səh-2

# İlham Əliyev: "Biz Vətən uğrunda vuruşuruq"



Bax:səh-2

## *Türkiyə Müdafiə Nazirliyi:*
## Ermənistan 30 il əvvəl olduğu kimi, bu gün də dinc sakinləri hədəf alır



**Azərbaycan torpaqlarını işğal etmiş, Xocalıda soyqırım törətmiş Ermənistan bu gün də bütün dünyanın gözü qarşısında dinc sakinləri hədəf alır.**

Adalet.az-ın məlumatına görə, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin Dağlıq Qarabağdakı vəziyyətlə bağlı bəyanatında deyilir. Bəyanatda qeyd olunur:

"Qadınlar, uşaqlar və qocalar da daxil olmaqla insanları öldürərək Xocalıda soyqırım törətmiş, Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan bu gün də bütün dünyanın gözü qarşısında günahsız dinc sakinləri hədəf alır. Ermənistan 30 il əvvəl olduğu kimi, bu gün də sülh və sabitliyin düşməni qismində hərəkət edir".

## *Milli Məclis beynəlxalq təşkilatlara müraciət edib*



**"Milli Məclis Ermənistanın Azərbaycana qarşı yeni təcavüz aktı ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib". Bunu Milli Məclisin Sədri Sahibə Qafarova bu gün keçirdiyi mətbuat konfransında deyib.**

S.Qafarova bildirib ki, onun imzası ilə 88 ölkəyə 127 məktub göndərilib: "Bundan əlavə, 11 beynəlxalq təşkilata da 11 məktub ünvanlanıb".

## Emin Əmrullayev: Xüsusi təhsil siniflərində artıq əyani təhsilə qayıdılıb



**Xüsusi təhsil siniflərində artıq əyani təhsilə qayıdılıb.**

Adalet.az-ın məlumatına görə, bunu Təhsil naziri Emin Əmrullayev dünən keçirdiyi mətbuat konfransında deyib.

Onun sözlərinə görə, peşə təhsili sahəsində kursların tələblərə əməl etməklə əyani formada təşkili nəzərdə tutulur.

Nazir qeyd edib ki, ali təhsil müəssisələrində distant təhsil sistemi dayandırılıb: "Ümid edirik ki, gələn həftələrdən internet problemi həll ediləcək və distant təhsil təşkil olunacaq".

## Zaxarovadan Qarabağla bağlı açıqlama



**Azərbaycan və Ermənistanın Rusiyadakı səfirliyi ilə planlaşdırılmış görüşlər davam edir.**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Dağlıq Qarabağdakı hadisələrlə bağlı jurnalistlərin suallarını cavablandırarkən deyib.

O bildirib ki, görüşlər başa çatdıqdan sonra mediaya lazımi açıqlama veriləcək.

Zaxarova Azərbaycanın Rusiyadakı səfiri Bülbüloğlunun Andrey Rudenko və Aleksandr Qorov ilə görüşdüyünü və bu görüşdə iyul ayında cəbhə xəttindəki gərginlikdən sonra Moskvada azərbaycanlı və ermənilər arasında yaşanan insidentlərə bənzər hadisələrin olmamasını müzakirə etdiklərini qeyd edib.

### *Oxucuların nəzərinə!*

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## CƏBHƏDƏN XƏBƏRLƏR

Bax:səh-4

## Xoyskinin nəvəsi: "Qarabağ azad olunacaq və babalarımın ruhu azadlığa qovuşacaq"

**"Azərbaycana dualarımı göndərirəm. İnanıram ki, nəhayət, Dağlıq Qarabağ və onun ətrafında yerləşən rayonlar işğaldan azad olunacaq və babalarımın ruhu azadlığa qovuşacaq".**

Bunu Report-un Türkiyə bürosuna açıqlamasında Fətəli xan Xoyskinin qardaşı, general Hüseynqulu xan Xoyskinin nəvəsi 90 yaşlı Leyla xan Xoyski deyib.

"Səhərdən axşamadək televiziya kanallarını izləyirəm. Türk kanalları Azərbaycandan geniş xəbərlər verirlər. Bəzən Azərbaycan televiziyalarından da xəbər alıram. Elə gözəl, sıra ilə məlumat verirlər ki, çox sevinirəm.

Qulağım bir qədər zəif eşidir, ona görə də televizora yaxın otururam. Onlara deyirəm ki, hər şey yaxşı olacaq, heç narahat olmasınlar. Azərbaycan oğulları ilə fəxr edirəm və Azərbaycan əsgəri üçün bütün günü dua edirəm. Artıq torpaqlarımızın bir hissəsi geri alınıb.

Azərbaycan əsgərləri dayanmadan irəli getsinlər. Hiss edirəm ki, nəhayət, Qarabağa getməyə hazırlaşa bilərik. Allah bütün şəhidlərimizə rəhmət etsin, onların qanı yerdə qalmayacaq", - Leyla xan Xoyski bildirib.

**Qeyd edək ki, Leyla xan Xoyski Türkiyədə yaşayır.**

## *İrandakı azərbaycanlılar Ermənistana hərbi texnika daşıyan maşınları yandırdı*

**Son günlər sosial şəbəkələrdə İrandan Ermənistana hərbi texnikanın daşınması ilə bağlı görüntülər yer alıb.**

Adalet.az xəbər verir ki, sözügedən foto və videolar İranda yaşayan azərbaycanlılar tərəfindən çəkilib. Buna etiraz olaraq İrandakı azərbaycanlılar dünən gecə həmin texnikaları daşıyan avtomobilləri yandırıblar və daha sonra bu hadisənin videolarını yayıblar.

Qeyd edək ki, Ermənistana hərbi texnikanın daşınması İslam həmrəyliyinə və qonşuluq, dostluq münasibətlərinə zidd addımlardır.

## Gürcü sərhədçiləri Dağlıq Qarabağ zonasına şin aparan yük maşınlarının qarşısını alıb



**Sentyabrın 28-də axşam saatlarında gürcü sərhədçiləri Gürcüstan-Ermənistan sərhədində Dağlıq Qarabağ zonasına şin aparan yük maşınlarının qarşısını alıb.**

Gürcüstanın cənubundakı Axalkalaki və Ninotsminda rayonlarında yaşayan etnik ermənilər Azərbaycanın işğal olunmuş ərazilərindəki erməni əsgərlərinə şin, ərzaq məhsulları və dərman yola salmağa çalışıb.

Gürcüstan sərhədçiləri avtomobillərin sərhədi keçməsinə qadağa qoyub.

## Duysun ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərdi Emin bu gündən



**"Ədalət" qəzetinin şöbə müdiri, gənc və istedadlı şair Emin Piri Vətənin çağırışına səs verərək könüllü şəkildə cəbhəyə yollanıb. Artıq iki gündür ki, o, Böyük Vətən Müharibəmizin iştirakçısıdır. Biz bütün ordumuza, eləcə də şair Emin Piriyə qələbə arzu edirik. Və inanırıq ki, onlar bu qələbəni xalqımıza bəxş edəcəklər.**

Emin Piri, biz sənə rəşadət, can sağlığı, düşmənə göz dağı verib Qələbə Bayrağı ilə dönməyini arzu edirik. Səni qələbə müjdənlə gözləyirik. Özündən muğayat ol, biz səni gözləyirik!

**Allah bütün əsgərlərimizi qorusun! Allah böyük qələbəni xalqımıza yaşatsın!**

## Şəmistan Əlizamanlı cəbhədən xəbər veracak

*Azərbaycan Televiziyasında yeni veriliş yayımlanacaq. Bu barədə televiziyadan məlumat yayılıb.*

*Məlumata əsasən, hərbi diktor Şəmistan Əlizamanlının aparıcısı olduğu veriliş "Cəbhədən xəbər" adlanır.*

*Proqramda cəbhədəki vəziyyət və döyüşlərin gedişatı ilə bağlı ən son xəbərlər olacaq.*

*"Cəbhədən xəbər" hər gün 23:30-da AzTV-də efirə veriləcək.*

## Bu torpaqlardan bizi heç kim çıxara bilməz



**"Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik".**

Adalet.az -ın məlumatına görə, bunu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşündə ordumuzun uğurlu əks-hücum əməliyyatlarından danışarkən bildirib.

Dövlət başçısı erməni xalqının bunu anlamalı olduğunu vurğulayıb:

"Erməni xalqı anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır.

Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik".

## İlham Əliyev: "Ermənistan hökuməti şərtimə əməl edərsə, döyüşlər dayanacaq"

**"Sentyabrın 27-də erməni silahlı birləşmələri bizə qarşı növbəti hərbi təxribat törədib. Mən onları xəbərdar etmişdim. Onlara BMT kürsüsündən sözlərimi demişdim. Bütün beynəlxalq ictimaiyyətə sözlərimi demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər erməni hökumətinə lazımi səviyyədə təsir edə bilməmişlər. Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır. Azərbaycan əsgəri onları öz torpaqlarından çıxaracaq və haqq-ədaləti bərpa edəcək. Mən demişdim ki, əgər iyul və avqust aylarında bizə qarşı törədilmiş həbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı söyləyib.

"Ermənistan işğalçılıq siyasətinə son qoymalıdır. Bunun əvəzinə Ermənistanın baş naziri bizə qarşı şərtlər qoyur. Bizə qarşı yeddi şərt qoyubdur. Mən bir müddət bundan əvvəl demişdim ki, biz bu şərtləri rədd edirik. Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtim qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək, sülh olacaq, bizim bölgəmizə sülh gələcək. Biz sülh istəyirik, biz məsələnin həllini istəyirik, əks təqdirdə 30 ilə yaxın danışıqlara ümid bəsləməzdik.

Danışıqlara bizim sadiq qalmağımızın yeganə səbəbi o idi ki, ümid var idi. Bizə ümidlər verilirdi, bizə siqnallar göndərilirdi ki, bir qədər səbir edin, məsələ həll olunacaq. Amma mən demişdim ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Demişdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmazsa, Azərbaycanın tam haqqı var ki, məsələ hərbi yolla öz həllini tapsın. Bu haqqı bizə Azərbaycan xalqı verib, bu haqqı bizə beynəlxalq hüquq normaları verib. Dünyanın ali beynəlxalq qurumu olan BMT-nin nizamnaməsində göstərilir ki, hər bir dövlətin özünümüdafiə haqqı var və biz bundan istifadə edirik, özümüzü müdafiə edib, əks-hücum əməliyyatına keçib bu gün düşmənə sarsıdıcı zərbələr endiririk.

Hələ ki gec deyil. Mən bir daha sözümü demək istəyirəm ki, Ermənistan bizim torpaqlarımızdan dərhal çıxmalıdır. Bilirsiniz ki, indi müxtəlif beynəlxalq təşkilatların, müxtəlif ölkələrin rəhbərləri mənə zəng edirlər, məsələ ilə bağlı maraqlanırlar, öz fikirlərini söyləyirlər. Mənim sözüm birdir, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində ki, biz haqq yolundayıq, döyüşlər Azərbaycan torpağında gedir, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və bizim buna tam haqqımız çatır. Çünki dünyanın heç bir dövləti qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır. Bu, bizim tarixi torpağımızdır. Beynəlxalq hüquq baxımından da bu, bizim torpağımızdır", - dövlət başçısı bildirib

## İlham Əliyev: "Biz Vətən uğrunda vuruşuruq"

**Mənə verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar.**

Adalet.az xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirib. Dövlətimizin başçısı deyib: "Şəhid ailələrinə ölkəmizdə xüsusi diqqət göstərilir, dövlət tərəfindən bütün lazımi işlər görülür. Deyə bilərəm ki, Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər. Bilirsiniz ki, mənim göstərişimlə bütün şəhid ailələri dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilir. Təkcə bu il 1500 şəhid ailəsi dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir.

Yaxın 2-3 il ərzində birinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunacaqdır. Biz bu gün də şəhidlər veririk, Vətən uğrunda gedən döyüşlərdə şəhidlərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah onların ailələrinə, yaxınlarına səbr versin. Onların qanı yerdə qalmır və qalmayacaqdır. Düşmənə layiqli cavab verilir".

# SÜLHÜN YOLU...

## Şuşada dalğalanacaq bayrağımızın altından keçəcək

**Son günlərin hadisələri artıq dünya ictimaiyyətinə məlumdur. Azərbaycan torpağında müharibə gedir. Sentyabr ayının 27-i səhər saatlarından başlanan bu müharibə düşmən təxribatı nəticəsində başlayıb. Dəfələrlə təxribatlar törədən və hər dəfə də bu təxribatları atəşkəsin pozulması kimi dəyərləndirən ATƏT-in Minsk qrupunun kölgəsində öz işğalçı siyasətini həyata keçirən Ermənistan cəzasızlıqdan daha da həyasızlaşırdı. Ali Baş Komandanımız cənab İlham Əliyevin dediyi kimi, "Erməni təxribatları, erməni həyasızlığı elə bir həddə gəlib çatmışdı ki, mən Ermənistana dəfələrlə xəbərdarlıq etmişdim. Amma görünür ki, bu, onlar üçün dərs olmadı...".**



Bəli, xəbərdarlıqlardan nəticə çıxarmayan, əksinə, danışıqlar xatirinə danışıqlar aparan və hər dəfə də özlərinin həyasız təklifləri, şərtləri, bəyanatları ilə yalnız prosesin ömrünü uzatmağa çalışan Ermənistan 27 sentyabr 2020-ci il tarixinin onlar üçün sərt bir təpgi olacağını, ciddi bir




dərs olacağını ağıllarına belə gətirmirdilər. Çünki onlar arxalandıqları güclərin kölgəsində özlərini Dağlıq Qarabağın işğal olunmuş torpaqlarımızın sahibi kimi hiss edirdilər. Amma bu istəkləri, bu vəhşilikləri, bu özlərindən müştəbeh olmaları 27 sentyabrdan sona çatdı. İndi onlar həmişə büründükləri məzlum, yazıq, kimsəsiz donlarını yenə ortaya səriblər. Və hay-həşirlə, göz yaşlarıyla dünyanı yanlış səmtə yönəltməyə, öz cinayətlərini gizlətməyə çalışırlar. Lakin Azərbaycanın Ali Baş Komandanının qətiyyəti, ordumuzun rəşadəti öz sözünü deyib. Belə ki, sentyabrın 27-də xalqımıza müraciət edən Ali Baş Komandanımız cənab İlham Əliyev vurğulamışdı ki, **"Ermənilərin hərbi siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı. Yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistanın hərbi siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və sosial məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaqdır".**

Özünün müraciətində Ali Baş Komandan birmənalı şəkildə vurğuladı ki, Ermənistanın törətdiyi bu təxribat iyun ayında Tovuz istiqamətində törədilərn təxribatın davamıdır. Çünki həmin təxribatda da düşmən artilleriya atəşləri ilə hərbçilərimizi, mülki şəxslərimizi həlak etdilər. Bu gün də onlar dinc sakinləri, mülki obyektləri, evləri atəşə tuturlar. Biz törədilən cinayətin xronikasına diqqət yetirəndə görürük ki, düşmən öz atəşləri ilə uşaqları, qadınları, ailələri məhv edir. Bu da Ermənistan rəhbərliyinin faşist maskasını açıq-aşkar sərgiləyir. Məlumdur ki, beynəlxalq konvensiyalara görə, beynəlxalq hüququn tələblərinə görə, dinc sakinlərə, mülki obyektlərə atəş açmaq ən ağır cinayətdir. Təəssüf ki, ermənilər həmişə olduğu kimi, bu gün də cinayət törətməkdən çəkinmir.

Ali Baş Komandanımız cənab İlham Əliyevin xalqımıza ünvanladığı müraciətdə onu da vurğulayıb ki, **"Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndində demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə!". Birincisi, bu yalandır, Qarabağ Azərbaycandır! və mən bununla bağlı öz fikrimi dəfələrlə bildirmişəm. "Qarabağ Azərbaycandır və nida!". İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi".**

Həqiqətən də Minsk qrupunun yarıtmaz fəaliyyəti nəticəsində danışıqlar xatirinə danışıqlar 30 ilə yaxındır ki, aparılır. Danışıqlar heç bir nəticə vermir. Çünki Ermənistan qeyri-konstruktiv mövqe nümayiş etdirir. Hətta öncədən masa üzərinə qoyulmuş mövzuları da, prinsipləri də görməməzliyə vurur. Son aylarda isə açıq-aşkar danışıqların Azərbaycanla qondarma Dağlıq Qarabağ Respublikası arasında aparılmasını ortaya atmışdılar.

Bax, bütün bunlar göstərirdi ki, Ermənistan növbəti təxribatlara hazırlaşır. Hətta bununla bağlı Azərbaycan prezidenti cənab İlham Əliyev Pakistanın ölkəmizdəki yeni təyin edilmiş səfirinin etimadnaməsini qəbul edərkən birmənalı şəkildə bildirdi ki, **"Ermənistanın hərbi-siyasi rəhbərliyi bütün vasitələrlə Azərbaycanı müharibəyə çəkirdi. Nəticədə, yəni sentyabr ayının 27-si səhər saatlarında onların ölkəmizə qarşı bir neçə istiqamətdən silahlı müdaxiləri, ağır artilleriya atəşləri bizi məcbur etdi ki, əks hücumla onları susduraq. Bu gün də ordumuz düşməni işğal etdikləri ərazilərimizdən vurub çıxarıb. Biz hər zaman problıemin sülh yolu ilə həll edilməsinin tərəfdarı olmuşuq. Amma düşmən nəinki normal danışıqların aparılmasının tərəfdarı olub, əksinə, onlar ərazilərimizdə qeyri-qanuni məskunlaşmalar aparıblar. İşğal etdikləri bölgələrin infrastrukturunu məhv ediblər. Bu gün biz torpaqlarımızı azad etməklə məşğuluq. Bizim Ermənistan ərazisində iddiamız yoxdur, Ermənistan ərazisində heç bir hədəfi də nişan almamışıq".**

Azərbaycan xalqının bu günlərdə yaşadığı sevinc hissi ordusuna güvəndən və Ali Baş Komandana olan inamdan qaynaqlanır. Çünki səngərlərdə böyük rəşadət qazanan ordumuz xalqımızın Böyük Vətən Müharibəsinin qələbə salnaməsini yazır. Müxtəlif bölgələrdə azad edilən kəndlərimiz, yaşayış məntəqələrimiz, ordumuzun nəzarəti altına keçən yüksəkliklər, məhv edilən silah və sursatlar, düşmən əsgər və zabitləri yazılan bu salnamədə bizim yaxınlaşan qələbəyə böyük inamımızın göstəricisidir. Ali Baş Komandanımızın 29 sentyabrda Rusiyanın "60 dəqiqə" telekanalına verdiyi müsahibədə də verdiyi müsahibədə də vurğuladığı kimi, **"Biz ölkəmizin müəyyən ərazilərində hərbi vəziyyətlə yanaşı, qismən səfərbərlik də elan etmişik. Bizim ordumuzun işğal olunmuş torpaqlarımızı azad etməyə hər cür imkanı var. Və biz də bu işi uğurla başa çatdıracağıq".**

**Bəli, bu, Ali Baş Komandanımızın açıq-aşkar ortaya qoyduğu mövqedi, bu, xalqımızın mövqeyidi, bu, ordumuza inamın göstəricisidir. Bu inamdan çıxış edərək əminliliklə bildirmək istəyirəm ki, ermənilər çox yaxın zamanda Şuşada dalğalanacaq 3 rəngli bayrağımızın altında məğlubiyyətlərini etiraf edəcək və Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə bərpa olunacaqdır. Həmin gün Böyük Vətən Müharibəmizin BÖYÜK QƏLƏBƏ GÜNÜ olacaqdır!**

**Əbülfət MƏDƏTOĞLU**
**Əməkdar jurnalist**

## *MM Sədri: "Azərbaycan tarixində yeni zəfər tarixi yazılır"*

**"Bu gün Azərbaycan tarixində yeni zəfər tarixi yazılır, ordumuzun düşmənə qarşı uğurlu əks-hücum əməliyyatları davam edir". Bunu Milli Məclisin sədri Sahibə Qafarova payız sessiyasının ilk plenar iclasında deyib.**

S.Qafarova bildirib ki, Ermənistan ordusu ağır itkilərə məruz qalıb. Sədr bildirib ki, Azərbaycan ordusu uğurlu



əməliyyatlar nəticəsində bir sıra ərazilərimizi və mühüm strateji yüksəklikləri düşməndən azad edib: "İnanırıq ki, bu əks-hücum əməliyyatı işğala son qoyacaq və biz qələbə gününü qeyd edəcəyik, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və öz dədə-baba yurdlarından didərgin salınan soydaşlarımız geri dönəcək".

"Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatı davam edir"- deyən Sədrin sözlərinə görə, düşmənin təxribatı barədə doğru, düzgün məlumatları dünya ictimaiyyətinə çatdırmaq üçün bütün tədbirlər həyata keçirilir: "Bu istiqamətdə parlament diplomatiyasından da istifadə edilir. Bütün danışıq və məktublarda Ermənistan silahlı qüvvələri tərəfdindən təxribatların törədilməsi və s. kimi məsələlər qeyd edilib. Azərbaycan öz ərazi bütövlüyünü təmsil edəcək".

Spiker bildirib ki, Türkiyə parlamentində təmsil olunan siyasi partiyalar Ermənistanın təxribatı ilə bağlı birgə bəyanat yayıblar:"Mən dünən TBMM-in sədrinə məktub göndərərək minnətdarlığımı bildirmişəm. Bu gün xalqımız öz dövlətinin yanındadır".

S.Qafarova bildirib ki, ermənilərin təxribatı ilə bağlı Milli Məclis adından bir çox ölkələrin parlamentlərinə və beynəlxalq təşkilatlara məktublar göndərilib və Azərbaycana qarşı erməni təcavüzü onların diqqətinə çatdırılıb.

**Nicat Novruzoğlu**

## *Azərbaycan daha bir beynəlxalq sənədə qoşulur*



**Milli Məclisin plenar iclasında "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqların qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Sazişin təsdiq edilməsi barədə" qanun layihəsi müzakirəyə çıxarılıb.**

MDB Hökumət Başçıları Şurasının Aşqabad şəhərində keçirilmiş 2019-cu il 31 may tarixli iclasında imzalanmış "Milli Məclisə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqların qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Sazişdə Azərbaycan Respublikasının qeyd-şərti əksini tapıb. Sənəddə qeyd edilir ki, Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş əraziləri azad olunmayanadək və işğalın nəticələri tam aradan qaldırılmayanadək, Sazişdə göstərilmiş heç bir hüquq, öhdəlik və müddəalar Azərbaycan Respublikası tərəfindən Ermənistan Respublikasına, habelə işğal olunmuş ərazilərdə həyata keçirilən fəaliyyətə münasibətdə tətbiq edilməyəcək.

**Müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasına səsverməyə qoyularaq qəbul edilib.**

## *Eldar Quliyev Hesablayıcı Komissiyaya üzv seçilib*



**Milli Məclisin deputatı Eldar Quliyev Milli Məclisin Hesablayıcı Komissiyasının üzvü seçilib.**

**Parlamentin dünən keçirilən iclasında məsələ səsverməyə qoyularaq qəbul edilib.**

**Nicat**

## *Parlamentdə jurnalistlər üçün 3 yeni iş otağı yaradılıb*



***Milli Məclisdə jurnalistlər üçün 3 yeni iş otağı yaradılıb, media nümayəndələrinin işləməsi üçün bütün lazımi şərait yaradılıb. Bunu Milli Məclisin sədri Sahibə Qafarova deyib. S.Qafarova bildirib ki, otaqların birində jurnalistlərin işləməsi üçün kompüterlər quraşdırılıb, bir otaq fotostudiya kimi fəaliyyət göstərəcək, digər otaq isə brifinqlər və müsahibələrin alınması üçün nəzərdə tutulub.***

***Spiker deyib ki, Milli Məclis jurnalistlərin fəaliyyətini yüksək dəyərləndirir:***

***"Əslində jurnalistlər üçün yeni otaqların yaradılması çoxdan nəzərdə tutulurdu, lakin koronavirus pandemiyası səbəbindən müəyyən ləngimələr oldu. Otaqlar artıq hazırlanıb və istifadəyə tam hazırdır. Jurnalistlər həmin otaqlardan sərbəst şəkildə iştifadə edəcəklər". Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxış edərək jurnalistlər üçün yaradılan şəraiti yüksək dəyərləndirib. Qeyd edib ki, bu yenilik KİV nümayəndələrinin parlamentin işini daha geniş və keyfiyyətli işıqlandırmasına müsbət təsir göstərəcək.***

## *Azərbaycan Kubada səfirlik açacaq*

***Milli Məclisin payız sessiyasının dünən keçirilən plenar iclasında Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsinin müzakirəsi daxil edilib. Müzakirələr zamanı səfirliyin açılmasının iki ölkə arasında münasibətlərin inkişaf etməsinə mühüm töhfə verəcəyi qeyd edilib. Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq təsdiq edilib.***

***Qeyd edək ki, hazırda Kubada Azərbaycanın diplomatik nümayəndəliyi fəaliyyət göstərir.***

***Nicat***

## Tahir Rzayev: "Zəfər bizimlədir!"



**"Azərbaycan xalqı işğal faktı ilə heç zaman barışmayıb və barışmayacaq. Ermənistanın mənfur işğalçılıq siyasəti nəticəsində Azərbaycanda bir milyondan çox insan öz doğma torpaqlarında yaşamaq hüququndan məhrum edilib. 30 ilə yaxındır davam edən bu vəziyyətdə Ermənistan nə beynəlxalq hüquqa, nə də BMT-nin qətnamələrinin tələblərinə məhəl qoymur. Bu azmış kimi Paşinyan hakimiyyəti Azərbaycana qarşı yeni təxribatlar törətməyə cəhd edir. Lakin artıq ordumuz tərəfindən onların layiqli dərsi verilir". Bu fikirləri yap.org.az saytına Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib.**

Tahir Rzayev bildirib ki, erməni hərbi birləşmələrinin mövqelərimizi ələ keçirmək məqsədilə törətdiyi növbəti təxribatın qarşısı qətiyyətlə alınıb, Azərbaycan Ordusunun həyata keçirdiyi adekvat xarakterli əks tədbirlər nəticəsində düşmən geri otuzdurulub, onun xeyli canlı qüvvəsi və hərbi texnikası məhv edilib. Onun sözlərinə görə, Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalı, ilk növbədə işğalçı hərbi qüvvələr torpaqlarımızdan çıxarılmalı, dinc insanlar, məcburi köçkünlər öz yurdlarına qayıtmalıdırlar: "Hazırda ölkəmiz müharibə şəraitindədir. Ermənistan Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini, yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif artilleriya qurğularından intensiv atəşə tutmaqla növbəti dəfə qeyri-humanist mahiyyətini, insanlığa qarşı olduğunu sübut edir. Mülki obyektlərin və dinc əhalinin vurulması Ermənistanın insanlığa qarşı cinayətidir".

Komitə sədri qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasında videoformatda çıxışı zamanı işğalçı Ermənistanın yeni təxribat planları haqqında dünya ictimaiyyətini məlumatlandırdı: "Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev sentyabrın 27-də Azərbaycan xalqına müraciətində və Təhlükəsizlik Şurasının iclasında işğalçı Ermənistana layiqli cavab veriləcəyini bəyan etdi. Cənab Prezident bir daha vurğuladı ki, Azərbaycanın işi haqq işidir. Təmas xəttində atəşkəs rejiminin pozulmasına yönələn bu kimi təxribatçı hərəkətlər Ermənistanın çirkin, məkrli və təcavüzkar siyasətinin təzahürüdür və bunun məsuliyyəti işğalçı dövlətin hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Artıq cəbhədən sevindirici xəbərlər var. Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusu bütün cəbhəboyu uğurlu əks-hücum əməliyyatları həyata keçirir və düşmənə sarsıdıcı zərbələr endirir. Artıq düşmənin ön xətti yarılıb və bbir sıra ərazilərimiz işğaldan azad edilib. Şübhə yoxdur ki, rəşadətli ordumuz tərəfindən bu zəfər yürüşü davam etdiriləcək və biz yeni-yeni qələbə xəbərləri eşidəcəyik. Onu da qeyd edim ki, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı Azərbaycan cəmiyyətində böyük ruh yüksəkliyi yaradıb. Bütün ölkə vətəndaşları cəbhə bölgəsinə getmək, silaha sarılaraq torpaqlarımızı işğaldan azad etmək kimi çağırışlar səsləndirilər. Bu, Azərbaycan cəmiyyətində vətənpərvərlik hisslərinin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir. Bu gün Azərbaycan güclü orduya malikdir və Silahlı Qüvvələrimiz Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, torpaqlarımızı işğaldan azad etməyə buna qadirdir. İnanırıq ki, tezliklə bütün torpaqlarımız işğaldan azad olunacaq".

# "Azərbaycan işğal faktoru ilə barışmır"

*"Bölgədə yeni geosiyasi vəziyyət formalaşır. Artıq 90-cı illərin əvvəllərindən kəskin fərqlənən münasibətlər var. Ermənistan yeni geosiyasi vəziyyəti nəzərə almasa dövlət kimi onun varlığına ciddi təhlükə yaranacaq. Qarabağ məsələsinin həlli beynəlxalq hüququn və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər". "Ədalət" qəzetinin qonağı professor, siyasi icmalçı Qulu Məhərrəmlidir.*

**-Azərbaycan Ordusunun Qarabağda başladığı əks-hücum əməliyyatı Cənubi Qafqazdakı ümumi hərbi-siyasi vəziyyətə təsir edirmi?**

-Əks-hücum əməliyyatı təkcə Cənubi Qafqazda deyil, bütövlükdə regionda və dünyada bir çox proseslərə təsir edir. Əvvəla bu bölgədə çox ciddi şəkildə marağı olan dövlətlər var. Odur ki, Qarabağda gedən Azərbaycanın torpaqlarının işğaldan azad olunma əməliyyatları dünyada əks-səda doğurub. Bu barədə Amerika qəzetləri yazır, bu barədə Avropa televiziyaları məlumat verir. Cənubi Qafqazda yaranmış hərbi-siyasi vəziyyət bütün dünyanın abu-havasına təsir edir.



Azərbaycan hər zaman bu əməliyyatlar üçün fürsət gözləyib. Uzun illərdən bəridir ki, Azərbaycan xalqının heysiyyatı təhqir olunur. Stepanakertdəki separatçı rejimin əməlləri, Paşinyanın baş nazir seçiləndən sonra insanlarımızda qıcıq yaradacaq çıxışlara yer verməsi, sərhədboyu bölgələrdə Azərbaycanın dinc sakinlərinə divan tutulması, əkinçilərin, kənd cammaatının rahatlığının pozulması və işğal olunmuş ərazilərimizdə erməni infrastrukturlarının yaradılması, mədəniyyət abidələrimizin, insanlarımızın ata-babalarının qəbirlərinin dağıdılması, bütün bu vandalizm hərəkətləri cəzasız qala bilməzdi. Ona görə də, Azərbaycanın başladığı əks-hücum əməliyyatı üçün hesab edirəm ki, doğru zaman seçilib. Bütün dünyaya Azərbaycan göstərir ki, torpaqlarının sahibidir, işğal faktoru ilə barışmır və barışmayacaq. Dəfələrlə qeyd edildiyi kimi, bu ərazilər Azərbaycanın qədim torpaqlarıdır və Azərbaycan torpaqlarının 1 metrini kimsəyə güzəştə getmək fikrində deyil. Əks-hücum əməliyyatı ermənilərdə yaranmış arxayınçılığa son qoyur. Bütün bunları üst-üstə gəlsək, buna bir dövlətin öz ərazi bütövlüyünü təmin etməsi uğrundakı mübarizəsi kimi baxmaq olar.

### *"Azərbaycan Ordusu beynəlxalq hüquqa uyğun olaraq davranır"*

**-Müdafiə Nazirliyinin bəyanatlarında müxtəlif konvensiyaların, o cümlədən, Cenevrə Konvensiyasının adı çəkilir. Bu konvensiyaların mahiyyətindən danışaq...**

-Bu, birbaşa hüquq məsələsidir. Mülki əhalinin hüquqlarının qorunmasıdır. Cenevrə konvensiyaya görə müharibə şəraitində hərbi obyektlərdən başqa mülki əhalinin evlərinə, yaşayış sahələrinə, təsərrüfatlarına ziyan vurulmamalıdır.

Müdafiə Nazirliyi çox haqlı olaraq bəyanatlarında bunu vurğulayır ki, biz Cenevrə konvensiyasının müddəalarına əməl edirik. Bu da qeyd edilir ki, çox təəssüf, ermənilər hərbi obyektlərini əhalinin sıx yaşadığı yerlərdə qurur. Yəni onları bir növ özləri üçün qalxan kimi istifadə edir. Bu insani nöqteyi-nəzərdən əxlaqsız bir davranışdır. Dünyanın heç bir dövlətində belə bir hal yoxdur. Dünyanın hər yerində dinc əhali hesabına pərdələnmə faktı qınanılır. Bu gün açılan atəşlər zamanı ermənilərin məhv edilən hərbi məntəqələrinə yaxın yerlərdə əhali özü üçün təhlükə görür. Hesab edirəm ki, Azərbaycan Ordusu beynəlxalq hüquqa uyğun olaraq davranır. Mülki əhaliyə ziyan vurmamaq üçün hədəfi çox diqqətlə seçir. Amma təəssüf ki, ermənilər bu davranışın əksini göstərir. Fizuli bölgəsinə, xüsusən, Tərtər rayon mərkəzinə atılan mərmilər onu göstərir ki, ermənilər hərbi itkilərinin qisasını Azərbaycanın dinc əhalisindən almağa çalışır.

**-Beynəxalq hüquqdan söz düşmüşkən, bir az da BMT qətnamələrinə ermənilərin məhəl qoymamasından söhbət açaq...**

-Bu qətnamələr neçə ildir, qəbul olunub? BMT-nin qəbul etdiyi 4 qətnamə sadəcə kağız üzərində qalıb. Həmin qətnamələrdə irəli sürülən əsas şərt ondan ibarətdir ki, erməni işğalçı qoşunları qeyd-şərtsiz tutduğu əraziləri tərk etməlidir, hərbi birləşmələrini oradan çıxarmalıdır. Düzdür, bu qətnamələrdə müddət qoyulmayıb, amma qeyd edilən "dərhal" sözü onu ifadə edir ki, qoşunlar orada heç cür qala bilməz və həmin əraziləri tərk etməlidir.

Bu qətnamələrin yerinə yetirilməsi əvəzinə Ermənistan işğal etdiyi zonalara böyük investisiyalar yatırtmağa çalışır. Erməni diasporasının köməyi ilə həmin ərazilərə kapital qoyulur, yollar çəkilir, qəsəbələr salınır. Əlbəttə, Azərbaycan buna necə biganə qala bilər?

Prezident İlham Əliyev BMT Baş Məclisindəki çıxışında çox açıq şəkildə bəyan elədi ki, təkcə infrastrukturlar yaradılmır, həm də Azərbaycan ərazilərinə müxtəlif ölkələrdən-Suriyadan, Livandan, ermənilərin yaşadığı digər yerlərdən əhali köçürülür.

Ermənistanın sərgilədiyi davranış həm də beynəlxalq birliyə meydan oxumaqdır. Avropa Şurasının Ermənistanın işğalçı dövlət olması haqqında qətnaməsi var. Başqa beynəlxalq qurumların yanaşması var.

İslam Əməkdaşlığı Təşkilatının və digər qurumların qətnamələri var. Bunlar beynəlxalq sənədlər olmasına baxmayaraq Ermənistan tərəfindən icra edilmir. Odur ki, beynəlxalq birliyə bu cür meydan oxuyan dövlət, hökumət birmənalı şəkildə cəzalandırılmalıdır. Hesab edirəm ki, hadisələr də o istiqamətə gedir.

### *"Ermənistan hökuməti indiki halda isterik vəziyyətdədir"*

**-Ermənistanın daxilində Azərbaycanın ittiham edilməsi və ermənilərin Rusiyadan, Avropa ölkələrindən kömək istənilməsi haqqında nə söyləyə bilərsiniz?**

-Zənnimcə, Ermənistanın baş naziri də, Ermənistan parlamenti də, hökuməti də indiki halda isterik vəziyyətdədir. Onlara elə gəlirdi ki, Azərbaycan 30 ildə olduğu kimi (Aprel döyüşləri və Tovuz hadisələrini çıxmaq şərtilə) sakit müşahidəçi vəziyyətində qalacaq. Birdən-birə əsk-hücumların olması və Ermənistan ordusunun itkilər verməsi Ermənistanın özündə ciddi panika yaradıb. Təkcə Qarabağın ermənilər yaşayan hissəsində deyil, elə Ermənistanın özündə də əhali artıq təşviş içindədir. Bu gün videolar yayımlanır ki, Qarabağ əhalisi Ermənistana köç edir. Bunlar hamısı faktdır və bunları danmaq olmaz. Sizə deyim ki, Azərbaycan Ordusunun təzyiqləri və hücumları artacaqsa, yəqin ki, belə olacaq, o zaman baxarsınız ki, Ermənistanın daxilində hansı ictimai-siyasi proseslər gedəcək? İndiyə qədər aparılan işğalçılıq siyasəti fonunda insanlar aclığa da, susuzluğa da dözürdü, bu gün birdən-birə o siyasətin iflasa uğraması və Ermənistan ordusunun məğlubiyyəti, əhalinin öz yerlərini tərk etməsi hesab edirəm ki, Ermənistan daxilində ciddi proseslərə səbəb olacaq. Bunun üçün Paşinyan da indidən hazır olmalıdır, başqaları da.

**-Bəzi siyasi icmalçılar belə hesab edirlər ki, Rusiya bu məsələdə neytraldır...**

-Rusiyanın müşahidəçiliyi bu məsələlərdə bəlli bir nöqtəyə qədər ola biləcək. Çünki Rusiyaya Qarabağ probleminin birdəfəlik, həm də hərbi yolla həlli sərf etmir. Rusiya belə hesab edir ki, nə qədər Qarabağ problemi var, həm Ermənistana, həm də Azərbaycana təsir imkanları qalır. Çox güman ki, yaxın zamanlarda Rusiya məsələyə münasibət bildirəcək. Lakin indiki şəraitdə onu deyə bilərəm ki, Rusiya vəziyyətin reallığını başa düşür, Ermənistanın baş nazirinin qıcıqlandırıcı hərəkətlərini görür və Azərbaycanı bir dövlət kimi anlamağa çalışır, Azərbaycanın öz ərazilərini terrorçulardan təmizləməsi siyasətinə liberal yanaşır.

**-Həm Azərbaycanda, həm də Ermənistanda hərbi vəziyyət elan olunub. Bir də bu məsələni şərh edək...**

-Müharibənin diqtə etdiyi şərtlər var. Müharibə şəraitinin diqtə etdiyi şərtlərə uyğun olaraq da ölkəmiz addımlar atır. Azərbaycan vətəndaşları bu addımları anlayışla qarşılayırlar və torpaqlarının azad olunması uğrunda ordumuza dəstəklərini əsirgəmirlər. Mən görürəm, insanlarımızda ruh yüksəkliyi var. Düzdür, şəhidlərimiz də var, amma unutmaq olmaz ki, Vətən torpaqlarının azad olunması şəhidlərsiz mümkün deyil. Şəhidlərin qanının alınması üçün ən yaxşı təsəlli torpaqların düşmənlərdən birdəfəlik azad edilməsi olardı və bu istiqamətdə də bütün xalq orduya dəstək verir.

### *"Hərbi əməliyyatlar Qarabağ danışıqlarına yenidən yanaşmanı gündəmə gətirir"*

**-Beynəlxalq media qurumları tez-tez sual verirlər ki, Türkiyə bu əməliyyatlarda iştirak edirmi?**

-Elə Ermənistanın özündə də belə bir fikir formalaşıb ki, guya, indiki hərbi əməliyyatlarda Türkiyə iştirak edir. Bunun heç bir əsası yoxdur. Çünki belə bir şey yoxdur. Hər kəsə məlumdur ki, indiki əməliyyatları Azərbaycan Ordusu özü aparır və heç bir kənar qüvvə iştirak etmir.

**-Başlanan əks-hücumlar Qarabağ məsələsinin həllini sürətləndirirmi? Həll variantlarına nələrsə əlavə ediləcəkmi?**

-Aparılan hərbi əməliyyatlar və onların uğurlu olması Qarabağ danışıqlarına yenidən yanaşmanı gündəmə gətirir. Bu vaxta qədər ermənilər danışıqları artıq bir şey hesab edirdilər. İndi aydın olur ki, heç də məsələ onların düşündüyü kimi deyil. Hər kəs bir şeyi bilməlidir ki, indi 90-cı illərin əvvəlləri deyil, Azərbaycanın Ordusu artıq güclənib və öz gücünü nümayiş etdirə bilir. Bunu nəzərə almaq lazımdır ki, bölgədə yeni geosiyasi vəziyyət formalaşır. Artıq 90-cı illərin əvvəllərindən kəskin fərqlənən münasibətlər var. Ermənistan yeni geosiyasi vəziyyəti nəzərə almasa dövlət kimi onun varlığına ciddi təhlükə yaranacaq. Qarabağ məsələsinin həlli beynəlxalq hüququn və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər.

**-İndiki şəraitdə-hərbi vəziyyətdə informasiya işinin təşkili ilə bağlı da fikrinizi öyrənmək istərdim...**

-Biz müharibə şəraitini və müharibə vəziyyətini nəzərə almalıyıq. İnternetin olmamasına, sosial şəbəkələrin işləməməsinə normal baxıram. Baxın sosial şəbəkələrdə təkcə ağıllı, düşüncə adamlarını görmürük, həm mənasız şərhlər yazan, dezinformasiyalar verən şəxslərlə də qarşılaşırıq. Bununla yanaşı düşmən tərəfindən saxta profillər vasitəsilə təxribat xarakterli çıxışlarla da rastlaşa bilirik. Odur ki, internetə çıxışın olmaması normaldır. Əvvəlki illərdən fərqli olaraq hazırda cəmiyyətin məlumatlandırılmasında yüksək təşkilatçılıq özünü göstərir. İnformasiyalar operativ verilir, cəbhə məlumatları toplanılır və hərbi informasiya mərkəzindən düzgün şəkildə yayımlanır. Media da məlumatı oradan götürür və bu da cəmiyyət üçün əsas informasiyaya çevrilir. Bununla yanaşı televiziyalarımız müxbirləri vasitəsilə əldə etdikləri informasiyaları paylaşırlar, cəbhə bölgəsindən reportajlar hazırlanır və insanlara təqdim olunur. Bütün bunların hamısı indiki şəraitdə dolğun məlumat verir. Televiziyaların işi təqdirə layiqdir. Xırda nöqsanlar var, bu gün onlardan danışmayacam. Sadəcə onu qeyd edəcəm ki, televiziya işçiləri bir az peşəkarlıqlarını artırsınlar. Bununla bağlı televiziyalarımızın potensialları var. Önəmli olan proqram quruluşudur ki, xəbər proqramları, xəbərdən törəmə proqramlar, diskusiyyalar, bölgələrdən canlı bağlantıların da olması müsbət haldır.

**Rövşən Tahir**

---

Emin Piri



# Müharibə şeirləri

### *Başdaşları utandırdı məni*

**Şəhid məzarlarını**
**mərmərə bükdük,**
**daş qoyduq başlarına**
**qalxa bilməsinlər**
**üzümüzə tüpürməyə.**
**Bu yaşıma görə**
**Şəhidlər Xiyabanında**
**18 yaşlı**
**baş daşları**
**utandırdı məni.**
**məndən kiçikdi hələ**
**məndən öncə doğulanlar**
**əmi deyib**
**üstümə qaçır başdaşları**
**bir əsgərin ölüm günü**
**başdaşının doğum günüymüş.**
**can qoydular**
**nə düşdü paylarına**
**sağ qalanlar**
**daşladılar**
**torpağının başını.**
**Şəhid məzarlarını**
**mərmərə bükdük,**
**daş qoyduq başlarına**
**qalxa bilməsinlər**
**üzümüzə tüpürməyə.**

### *Mələklərə atılan mərmilər...*

**Toplardan,**
**təyyarələrdən**
**doğan uşaqlar**
**yerdə bələklərdən çıxırdı.**
**uşaqların yerdə**
**batan səsləri**
**göydə mələklərdən**
**çıxırdı.**
**Analar saxlaya bilmirdi**
**bombaları**
**uşaqlar qaça bilmirdi**
**bombalardan.**
**hara qaçsalar da**
**bombalar tuturdu uşaqları.**
**şəhər bombalanarkən**
**itirmişdi**
**altıaylıq körpəsini.**
**qoparmışdı**
**əllərindən mərmilər.**
**bir qolu balasında**
**biri özündə qalmışdı ananın...**
**itkin qoluna yalvarıb,**
**itkin balasını tapşırırdı ana:**
**"yaxşı bax balama**
**ağlayanda**
**əllərindən tut,**
**bir az güldür.**
**qulağı üşüyəndi**
**qulağını yaxşı ört".**
**Balasıyla itən**
**qolunu günahlandırıb,**
**geri qayıtmayan**
**əlinə ağlayırdı.**
**itirdiyi qolunun**
**yerinə baxıb**
**yarasını danlayırdı,**
**ana.**
**bu dağılmış şəhərin**
**hər daşını qaldırıb,**
**axtarırdı yavrusunu.**
**daş qaldırmaqdan**
**daşa dönmüşdü təklənmiş əli.**
**ancaq bala vermirdi**
**daşlar...**
**on altı il keçsə də**
**ana balasını axtarırdı**
**altı aylıq körpələr arasında.**

### *Sağ qalan varmı?!.*

**Əsgər sinəsi axtarır**
**isinməyə**
**fevral şaxtasından**
**üşüyən güllə.**
**hər əsgər tabutu**
**bir ağ gəlinliklə köçər...**
**əsgər deyil,**
**sevən qızın arzularını**
**götürüb gedər**
**hər atılan güllə.**
**soba yanında**
**gecə yarısı bir qız**
**məktub yazır səngərə.**
**anasının yarıyuxulu**
**"qızım yatmamısan?"**
**sualına diksinib**
**"üşüyürəm, ana**
**odun atıram sobaya" ...**
**Daha**
**gecələri oyaq qalmağa**
**soba yanında**
**məktub yazmağa,**
**yalandan üşüməyə**
**sobaya odun atmağa**
**ehtiyac yoxdu...**
**tağım komandirinin**
**səngərdən qıvrıla-qıvrıla**
**boğuq səsi gəlir:**
**kimsə sağdı?!**

### *Ayağım özümdən qeyrətli çıxdı*

**çiçək açırdı**
**torpağa basdırılan**
**minalar**
**toxunanda ayaqlar.**
**çiçəklər yara açırdı**
**yaralar**
**anaların yuxusuna qaçırdı.**
**yuxular qara xəbərin**
**ardınca qaçırdı.**
**Qəlbinə qara xal düşən qızların**
**gözünün altından**
**öpüş yerini**
**səhər eşitdiyi xəbərlər yuyar.**
**evli xanımlar**
**yatağında yox,**
**torpaqda**
**əriyçün dərin yer salar.**
**...O da cəbhədəydi**
**mərmilər qucaqlamışdı**
**sağ ayağının addımını.**
**arxada can verən**
**addım səsinə**
**qayıdıb**
**itmiş ayağını aldı əlinə.**
**Bir vaxt sevgilisinə**
**gül verən əllər**
**bugün nə aparacaqdı?!**
**cəbhədə qalan sağ ayağının**
**təqaüdünü də**
**sol ayağı alıb xərcləyir!**
**danlayır özünü hər səhər-axşam**
**əlini başına, dizinə çırpır:**
**o qaldı cəbhədə,**
**mənsə qayıtdım**
**ayağım özümdən qeyrətli çıxdı.**

### *İtirilmiş əllər*

**Görüşəndə**
**Sevgilisinin əlində**
**gözü axtarardı**
**ona veriləcək gülləri.**
**İndi**
**kitabları arasında qurutduğu**
**Gül ləçəklərində axtarır**
**Sevgilisinin cəbhədə itirdiyi əlləri.**

### *Atəşkəs*

**İyirmi illik**
**köhnəlmiş sözlərlə**
**başladı**
**televiziya**
**xəbər başlıqları:**
**atəskəs pozulub...**
**düşmən susduruldu.**
**mərmilərə**
**atılan**
**Ana fəryadıyla.**

### *Məmməd İsmayıla*

**Daha qapı döymür ağacdələnlər,**
**Yorulub dimdiyi, dişi bir ildir.**
**Ömrü cox çəkməz e... bu qandalın da,-**
**Çırpır Prometey daşı bir ildir.**
**Altda ilan yatan bu otu-layı**
**Qaldırdın,**
**üstünə yeridi ayı.**
**Adam öldürənə medal havayı,**
**Görüb dinməyənin işi bir ildir.**
**Haqq batır dünyanın nahaq üzündə,**
**Çör-çöplər gur çayın axar üzündə.**
**Bağlı qapıların arxa üzündə**
**Özün kefə tutub naşı bir ildir.**
**Bir şah fərman verir, biri qol çəkir,**
**Qollu kağızların yükün el çəkir.**
**Varlının yayı da ildə il çəkir**
**Lüt-üryan yetimin qışı bir ildir.**
**Savalanda yatan belin əydisə,**
**Baba Dərvişə də xəta dəydisə...**
**Qırx gün çəkməliydi bu hər nəydisə...**
**Qırxı çoxdan keçib yaşı bir ildir.**

### *Gecikmisən*

**Məni sevənlərin çoxu gecikdi**
**Sən də gecikdin**
**Əzrayıl.**
**Səndən öncə bir qız gəlib,**
**Göz dikdiyin canımı,**
**səndən öncə apardı.**
**Gəlirsən günorta gəl,**
**Gecə evdə olmuram.**
**Mən sözümdə oluram,**
**Heç özümdə olmuram.**
**Eh əzrayıl...**
**Gəlirsən, vaxtsız gəlmə.**
**Heç kimə yoxdu etibar,**
**Bir də gördün yaradana**
**Çatdırıblar,-**
**Aramızda nəsə var!**

### *SəngərdəkİlərIn acığına*

**Aylardır səngərdəyik,-**
**sevgidən, qadından uzaq.**
**Elə bil**
**bizə,**
**bütün savaşlara,**
**düşmənimizə,**
**və bizi səngərdə isidən**
**düşüncəmizə**
**meydan oxuyur**
**öz öpüşləriylə**
**mərmilər altında**
**sevişən göyərçinlər.**

---



*Eminquey*

## Bərbər hardadı? Könüllü müharibəyə gedib!

**İşimizlə üzbəüz binanın həyətinə düşmüşdüm, təcili bərbər axtarırdım.**

**Bərbərin biri köçüb, qapısı bağlıdır. O birinə zəng vurdum, yemək yeyir, yarım saata boş olacaq.**

**Olsun, bərbər adamı gözlədər də, nə var ki burda?! Ümidim üçüncüyə qalmışdı.**

**- Rəşad usta hardadır?**

**- Könüllü müharibəyə gedib!**

**Eşidən kimi duruxdum. Qismətdə bu da varmış.**

**"Bərbər hardadı? Könüllü müharibəyə gedib"...**

---

# QALMAQALLA BAŞLAYAN İLK DEBAT

**ABŞ prezidentliyinə namizədlərin birinci debatı qalmaqalla başlayıb. Demokratların namizədi Co Bayden, hazırki prezident Donal Trampı Rusiyanın amerikan əsgərlərinin qətlə yetirilməsi üçün əfqan yaraqlılarına pul mükafatı verməsi faktını tənqid etməməkdə günahlandırıb.**

Debat Klivend şəhərinin Caze Western Revers universitetində aparılıb və NBC telekanalı ilə birbaşa yayımlanıb.

"Bu prezidentin vaxtında biz zəiflədik, gücsüz, nisbətən kasıb, qəddar insanlara çevrildik" - deyə Bayden bildirib.

O, Trampı Putinin köpəyi olmaqda günahlandırıb, onun hətta "Putinə amerikan əsgərlərinin başına qoyduğu mükafata görə söz deməyə belə çəkindiyini" - deyib.



Bayden 44-cü prezident Barak Obamanın dövündə, vitse-prezident işlədiyi vaxtlarda Putinlə görüşlərində ona "ondan qorxmadıqlarını aydın başa saldığını" bildirib.

Tramp Baydenə "tez-tez mənim barəmdə "bu ağıllı" ifadəsini işlətmə replikalarına, demokratların namizədi "səsini kəs" cavabı verib. Tramp da borclu qalmayaraq, ona "sən, "ağıllı" sözünü işlətmə, çünki səndə ağıl deyilən heçnə yoxdur Co" - deyə bildirib. Debat zamanı Trampın libetal baxışları ilə seçilən Emi Komi Barretin Ali Məhkəmə sədrliyinə namizədliyini irəli sürməsi qarşılıqlı ittihamlara səbəb olub. Demokratlar getməkdə olan hakimiyyətin seçkilərə az qaldığı bir vaxtda kimlərinsə vəzifəyə təyin etməsinin qəbuledilməz olduğunu qeyd ediblər.

**Debatda pandemiya, iqtisadi vəziyyət və s. müzakirəsi də qalmaqalsız ötüşməyib.**

**Rüstəm Hacıyev**

## CƏBHƏDƏN XƏBƏRLƏR

### *Müdafiə Nazirliyi: Ermənistan ordusunun mövqeləri darmadağın edilib*



**Azərbaycan Ordusunun artilleriya zərbələri nəticəsində Tərtər rayonunun Həsənqaya yaşayış məntəqəsi yaxınlığında yerləşən Ermənistan silahlı qüvvələrinin 5-ci motoatıcı alayının 1-ci taboru və Talış istiqamətində yerləşən 6-cı motoatıcı alayının 1-ci taborunun mövqeləri dağıdılıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, ağır itkilərə məruz qalan düşmən ölən və yaralıların evakuasiyasını təşkil etmək üçün nəqliyyat vasitələri tapmaqda çətinlik çəkir.**

### *Cəbrayıl rayonu istiqamətində düşmənin döyüş texnikaları məhv edilib*

**Cəbrayıl rayonunu istiqamətində düşmənin döyüş texnikaları bölmələrimiz tərəfindən məhv edilib.**

Bu barədə Adalet.az-a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

### *Düşmən Tərtəri atəşə tutdu: Yaralılar var*

**Sentyabrın 30-da, səhər saat 08:00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutur. Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb. İlkin məlumata görə, mülki infrastruktura ziyan dəyib və yaralılar var.**

### *Düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilib*

**İşğal olunmuş torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edir.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, sentyabrın 27-dən bu gün səhər saatlarınadək düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tankəleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb. Dünən gedən döyüşlər ərzində Xocavənd rayonunun Şuşakənd ərazisində düşmənin 1 S-300 zenit-raket qurğusu sıradan çıxarılıb. İtirilmiş mövqeləri geri qaytarmaq üçün Madagiz istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən sentyabrın 30-u səhər saatlarından başlayaraq hücuma cəhd göstərib. Düşmənin bu fəaliyyətinin qarşısı alınır və onun müqavimətinin qırılması məqsədilə qoşunlarımız tərəfindən əks-həmlə əməliyyatı keçirilir.

Hazırda bütün cəbhə boyu hərbi əməliyyatlar davam edir.

### *Ermənistanın Tərtərə atəşi nəticəsində 7 mülki şəxs yaralanıb*

**Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.**

Baş Prokurorluqdan Adalet.az -a verilən məlumata görə, düşmənin silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Ermənistan hərbi birləşmələrinin növbəti dəfə ağır artilleriyadan Tərtər şəhərini intensiv atəşə tutması səbəbindən 30.09.2020-ci il tarixdə saat 08 radələrində dövlət qurumlarının inzibati binalarının yaxınlığına top mərmisinin düşməsi nəticəsində 7 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, o cümlədən mülki infrastruktur obyektlərə külli miqdarda ziyan vurulub. Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin edilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədi ilə zəruri olan tədbirlər həyata keçirilir.

### *Erməni taborunun şəxsi heyəti müdafiə mövqelərini tərk edərək qaçır*

**Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taborunun şəxsi heyəti ağır itkilərə məruz qalaraq, müdafiə mövqelərini özbaşına tərk edərək qaçır.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

### *Füzuli istiqamətində yerləşən erməni taboru atəşə tutuldu*

**Azərbaycan Ordusunun bölmələri Ermənistan silahlı qüvvələrinin Füzuli istiqamətində yerləşən 4-cü taborunu ağır artilleriya atəşinə məruz qoyub.**

Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb.

Düşmən canlı qüvvə və hərbi texnika baxımından xeyli sayda itki verib.

### *Düşmənin ehtiyat qüvvələri məhv edilib*

**Qoşunlarımızın zərbələrinə məruz qalan Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından komandanlıqdan təcili surətdə kömək istəyib.**

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, köməyə gələn ehtiyat qüvvələr tərəfimizdən aşkar olunaraq atəş zərbəsi ilə məhv edilib.

### *Ağdərədə yerləşən erməni qərargahına zərbə endirilib*

**Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının 5-ci dağatıcı alayının Ağdərə yaşayış məntəqəsində yerləşən qərargahına zərbə endirilib.**

Bu barədə Adalet.az-a Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib. "Düşmən canlı qüvvə və hərbi texnika baxımından xeyli sayda itki verib"

### *Düşmənin daha səkkiz döyüş texnikası məhv edildi*

Cəbhənin müxtəlif istiqamətlərində düşmənin bir ədəd "Uraqan" yaylım atəşli reaktiv sistemi, bir ədəd "OSA" zenit-raket kompleksi, üç ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, bir ədəd piyadanın döyüş maşını və iki ədəd D-20 haubitsa-topu məhv edilib.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

# "Sürücülər komendant saatının rejiminə əməl etməlidirlər"

*Bu sözləri bizimlə söhbətində Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin, Hərəkətin təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqə bölməsinin inspektoru, polis baş leytenantı Toğrul Nəsirli dedi*

**-Sirr deyil ki, ölkəmizdə sentyabrın 28-dən hərbi vəziyyət elan olunub, Bakıda və cəbhə bölgələrində komendant saatı elan edilib. Sizcə, bu komendant saatında sürücülərə hansı tövsiyyə və müraciət olunmalıdır ki, onlar mövcud qaydalara əməl etsinlər?**

-Digər şəhərlərdə və rayonlarda olduğu kimi Bakıda da komendant saatı tətbiq edilib. Və bu komendant saatına uyğun da iş rejimi mövcuddur. Yol polisi olaraq sürücülərə bu barədə müraciət etmişik, həmin müraciətdə əsas fikir bundan ibarətdir ki, onlar komendant saatına uyğun olaraq Bakı şəhərində mövcud qaydalara əməl etməlidirlər. Yəni hər bir sürücü və hərəkət iştirakçısı bir həqiqəti anlamalıdır ki, Bakıda komendant rejimi tətbiq edilirsə, axşam saat 9-dan sonra hər bir sürücü bu qanunlara ciddi riayət etməyə borcludur. Başqa sözlə demiş olsaq, hətta onların özlərinin icazəsi olsa belə, mütləq qaydada nəqliyyat vasitələrinə də icazə alınmalıdır. Üstəlik də bütün sürücülər sükan arxasında əyləşərkən yol hərəkəti qaydalarına əməl etməli, şəhərdə hərəkət edən xüsusi təyinatlı avtomobillərin hərəkətinə şərait yaratmalıdırlar. Bununla yanaşı birmənalı olaraq yol hərəkəti qaydalarına kimliyindən asılı olmayaraq hamı riayət etməlidir.

**-Cənab baş leytenant, sizə elə gəlmirmi ki, bizim bəzi sürücülər nəinki komendant saatında, hətta adi günlərdə belə yol hərəkəti qaydalarını kobud sürətdə pozur, digər hərəkət iştirakçıları üçün qəza şəraiti yaradırlar...**

-Təbii ki, göstərdiyiniz bu faktlar şəhərimizdə həmişə olub və bu gün də var. Sadəcə olaraq bir çox sürücülər yol hərəkəti qaydalarını pozmaqda israrlıdırlar. Onlara qarşı da davamlı olaraq yol polisi qabaqlayıcı tədbirlər görür. Yəni yol hərəkəti qaydasını pozmuş hər bir sürücü məsuliyyətdən yaxasını kənara çəkə bilmir. Bir çox halda bəziləri hərəkət iştirakçılarını məsuliyyətə cəlb etdiyinə görə yol polisini qınayır. Amma burada qınanmalı yol polisi deyil, yol hərəkəti qaydasını pozan sürücüdür...

**-"Qaydaların pozulması" dediniz, yadımıza piyadalarla bağlı Bakı şəhərində baş vermiş yol-nəqliyyat hadisələri düşdü. Aldığımız məlumata görə, Bakıda baş vermiş yol-nəqliyyat hadisələrinin 56 faizi piyadalarla bağlıdır. Yəni piyadaların ölüm faktının artması istər-istəməz yol polisini narahat etməyə bilməz. Bu barədə nə deyə bilərsiniz?**

-Əlbəttə, piyadalarla bağlı baş vermiş ölüm hadisələri Bakı Şəhər Dövlət Yol Polis İdarəsinin rəhbərliyini və bizi çox narahat edir. Ona görə də rəhbərlik piyadaların təhlükəsizliyi ilə bağlı qabaqlayıcı tədbirlərin görülməsini əsas vəzifə kimi bütün əməkdaşlar qarşısında qoyur. Hər gün demək olar ki, Bakı Şəhər Yol Polisi İdarəsi bu məsələləri gündəmdə saxlayır, piyadaların təhlükəsizliyini təmin etmək üçün qabaqlayıcı tədbirlər görür...

**-Siz "qabaqlayıcı tədbirlər" dedikdə, yəqin ki, piyadaların maarifləndirilməsi işini nəzərdə tutursunuz...**

-Təbii ki, hərəkət iştirakçılarının və piyadaların maarifləndirilməsi bizim əsas vəzifələrimizdəndir. Çünki bir çox halda piyadaları cərimə etməklə bu problemi həll etmək mümkün deyil. Və biz də heç çalışmırıq ki, piyadalar cərimə edilsinlər.




Yol polisi ona çalışır ki, piyadalar qaydalara əməl etsinlər, yeraltı və yerüstü keçidlərdən istifadə etsinlər və həyatlarını təhlükəyə atmasınlar. Çox təəssüf ki, bəzi piyadalar həyatlarını təhlükə qarşısında qoyaraq hətta hava limanına gedən yolda-hərəkətin yüksək sürətli olduğu yerdə yolu keçmək istəyirlər. Bax neçə-neçə piyada yolüstü keçidi qoyub hərəkətin intensiv olduğu yerdən keçərkən nəqliyyat vasitəsi ilə vurulub. Bizim də əsas məqsədimiz budur ki, belə hadisələrin qarşısını alaq və piyadaların təhlükəsizliyini təmin edək. Bu məqsədlə bizim müxtəlif televiziya kanallarında maarifləndirici çarxlarımız olub. Bax bu cür təbliğat vasitələri istər-istəməz piyadaları daha intizamlı olmağa səsləyir.

**-Bir fikri də bildirmək istəyirik, havaların yağışlı və yağmurlu günlərində bəzən işıqforlar işləmir, sürücülər çıxılmaz vəziyyətdə qalırlar. Harada ki, işıqfor işləməyən yerdə yol polisi olur, orada hərəkət tənzimlənir. Yol polisi olmayan yerdə isə vəziyyət çətinləşir. Bax bu cür mövcud nöqsanları aradan qaldırmaq üçün hansı çıxış yolları axtarılır?**

-Yağışlı-yağmurlu havalarda şəhərimizdə bəzən işıqforlar işləmir. Həmin anda yol polisi nasazlıq yaranan küçə və prospektdə hərəkətin təhlükəsizliyini tənzimləyir. Belə bir şəraitdə şürücülər çıxılmaz vəziyyətə düşür və hətta hərəkət üstünlüyü olan yerdə belə digər nəqliyyat vasitəsinə şərait yaradılmır. Gərək sürücülər də bu cür mürəkkəb hava şəraitində yüksək mədəniyyət göstərsinlər, bir-birinə hörmətlə yanaşsınlar. Çox təəssüf ki, bəzi sürücülər bir-birinə hörmət eləmir, elə tez həmin yerdən keçməyə can atırlar. Bu isə yağışlı havada yol-nəqliyyat hadisələrinin baş verməsinə münbit şərait yaradır.

**-Toğrul müəllim, sonda bir daha sürücülərə nə tövsiyyə edərdiniz?**

-Tövsiyyəmiz bundan ibarətdir ki, hər bir hərəkət iştirakçısı və sürücülər bizim müraciətimizə məsuliyyətlə yanaşsın və diqqətli olsunlar. İnanın, sürücülər və piyadalar diqqətli və məsuliyyətli olsalar, bu qədər ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisələri baş verməz. Ona görə də bir daha tövsiyyə edirik ki, sükan arxasında olan sürücü, yolu keçən piyada qaydalara əməl etsinlər və bir-birinə hörmətlə yanaşsınlar, belə olarsa, sonradan heç kəs peşimançılıq hissi yaşamaz...

**Söhbətləşdi:**
**Faiq Qismətoğlu**

# *"Sevincə həsrət qalmış millətin qarşısını heç nə kəsə bilməz"*

## "Sevincə həsrət qalmış millətin qarşısını heç nə kəsə bilməz"

***Artıq dördüncü gündür ki, Qarabağda döyüşlər səngimir, ordumuz erməni ordusuna ağır zərbələr endirir. Hamının ürəyi cəbhə xəttində döyünür və hamı qələbə xəbəri gözləyir. Bəs, bu döyüşlər haqqında ədəbiyyat, incəsənət adamları nə düşünür?***

***Adalet.az saytı onların fikirlərini sizə təqdim edir:***

***Müğənni Nura Suri:*** Mənim ən yaralı yerim torpaqların işğal altında olmasıdır. Çünki valideynlərim bu torpaq uğrunda döyüşüblər, anam yaralanıb, ona görə də hələ də torpaqla-



rın qayıtmaması şəxsən mənə ikiqat əziyyətdir. Hər bir azərbaycanlı kimi Xocalı faiəsini heç bir zaman unutmuram və unutmaram da. Biz heç vaxt qisas almırıq, yəni kimdənsə qisas almaq iddiasında deyilik. Sadəcə, həlak olan günahsız insanların qanı yerdə qalmasın deyə torpaqlarımızı geri qaytarmaq istəyirik. Biz heç kimin torpağına göz dikmirik, üstünə getmirik. Bunu müharibəsiz həll etmək olardı, təssüflər olsun ki, qarşı tərəf bunu anlamır və hər zaman bizi günahlandırmağa çalışır. Bu qədər yalan danışmağın mənası yoxdur və bunlar bunu niyə edir, anlamıram. Onlar deyirlər ki, müharibəni dayandırın. Torpaqlarımızı geri qaytarsınlar, belə deyək, hamının əziyyəti yerdə qalmasın, ölənlərin ruhu şad olsun, müharibəni dayandıraq. Bu qədər qaçqınımız var. Bizim kimdənsə artıq istəyimiz yoxdur ki. Bunu başa düşmək bu qədər asan və bu qədər bəsitdir. Biz sadəcə öz torpaqlarımızı istəyirik və 30 ildir ki, işğal altındadır.Bizim bu günə kimi əsirlikdə olan insanlarımız var. Heç kim bunu düşünmür. Rus kanallarına baxıram, heç kim bunu müzakirə etmir. Deyiləcək o qədər söz var ki.. Həlak olan körpələrimiz - Zəhra, Ramin...evin içində şəhid olanlar var.. Rus kanalına baxıb əsəbiləşirəm. Bütün bunlar müzakirə olunmur. Halbuki biz Ermənistana yox, onlar bizə hücum edirlər. Müharibə bizim torpaqlarımızda gedir. Biz kimə nəyi sübut etməliyik?

Onlar kordurlar, kardılar? Niyə bütün bunları görmək istəmirlər? Bizi dünyaya başqa cür tanıtmaq istəyirlər. Mənə ən pis təsir edən bax budur ki, hal-hazırda Rusiya tv-lərində bizə qarşı aqressiya yaranıb. Bir şeyi anlamıram ki, bu sifarişi edənlər niyə cəzasız qalırlar?

Dil bilən jurnalistlərimiz, yazıçılarımız belə sifarişli verilişlərdə iştirak etməməlidir və özümüz belə verilişlər hazırlamalı, doğru-düzgün məlumatları xarici dillərdə TV-lərimizdə,



youtube-da, sosial şəbəkələrdə yayımlamalı, təbliğ etməliyik.

Bilirsiniz ki, təkcə Kim Kardaşyanın 189 milyon izləyicisi var. Bu rəqəm Rusiyanın əhalisindən çoxdur və Kim Kardaşyan yalan məlumatlar yayır, bizim haqqımızda mənfi fikir formalaşdırmağa çalışır. Yəni həm də informasiya müharibəsi gedir. Halbuki bir daha təkrar edirəm, bizim torpaqlarımız işğal altındadır, biz öz torpaqlarımız uğrunda döyüşürük. Azərbaycan xalqı çox saf, mərd, dözümlü, mehriban, xeyirxah xalqdır. Düşünürəm ki, bu məqamda hamımız diqqətli olmalıyıq, ziyalılarımızdan, intellegent təbəqədən yararlanmalıyıq. Bu sahədə də mütləq şəkildə işlər görülməlidir. Xahiş edirəm status və şərhlərdə, paylaşımlarda diqqətli olaq. Bir çox ermənilər bizim adlarla səhifələr açıb ara qatmaq məqsədi ilə paylaşımlar edirlər.

***Şair Səhər Əhməd:*** "Düzü, hisslər burulğanındayam. Görün neçə ildi bu günləri gözləmişik. İlk gün elə bilirdim yuxudur, ayılacam. Tam qələbəni düşünəndə həyəcana dözə bilmirəm. Bir tərəfdən ön cəbhədəki oğullarımız üçün dua edirəm, şəhidlərimizə üzülürəm. Bayaq bir status yazdım ürək nə sevincin, nə kədərin böyüklüyünə dözmür. Amma yüyürən yıxıldığına baxmaz deyiblər. İtkisiz qələbə olmur. Bizə qələbə sevinci yaşadan bütün əskərlərimizin önündə baş əyirəm. Daha az itkiylə tam qələbə arzulayıram millətimə. Biz bu müharibədən qalib çıxmağa borcluyuq."

***Aktyor Cavanşir Hadıyev:*** Bu son 30 ildə heç bu qədər sevinməmişik. Sevincimin həddi-hüdudu yoxdur. Millətimizin bu qədər həmrəy olmağı, ordumuzun uğurları məni o qədər sevindirir ki. Biz artıq özümüzü böyük bir millət kimi hiss etməyə başlamışıq. O hadisələr baş verəndə 21 yaşım vardı, indi 52 yaşım var, başa düşürəm ki, Allah nəhayət, bizə bunu görməyi nəsib edib. Allahın ədaləti



bərqərar olur. Bir dövlət kimi özümüzü bütün dünyaya sübut elədik ki, kiçik dövlət olsaq da, qürurlu xalqıq, qürurlu dövlətik. Bunu bütün dünya görür. Hökmən qeyd etmək istəyirəm ki, türk birliyindən başqa yolumuz yoxdur. Hamımız bir yumruq kimi birləşsək, hər şey alınacaq.

Şəhidlərimiz hamımızın, eləcə də mənim ağrılı yerimdir. Amma yenə də özümdə güc tapıb deyirəm ki, gərək şəhidlər üçün ağlamayaq. Çünki onlar hər kəsin arzuladığı ən yüksək zirvəyə ucalıblar.

Çox heyfslənirəm ki, yaşım çox olduğuna görə Hərbi Komissarlıqdan məni geri qaytardılar. Amma bu döyüşdə istənilən formada kömək etməyə hazıram. Sevinirəm ki, artıq 90-cı illərdə kimi aciz deyilik. Belə bir deyim var, daşları yığmaq vaxtıdır. Baxın, indi biz artıq daşları yığırıq.

Dünən ölkə başçısı İlham Əliyevin "Rossiya 1" kanalındakı çıxışını izlədim. Azərbaycanın mövqeyini çox səlis, dəqiq çatdırdı. İlham Əliyev bu çıxışla onların payını artıqlaması ilə verdi. Artıq təslimçilik mövqeyindən uzaqlaşdıq. Düşmənə aman vermək lazım deyil. Tarix bir daha təkrarlanmamalıdır. Bəlkə də bir müddət əvvəl bütün bu baş verənləri kimsə mənə desəydi, inanmazdım. Amma indi inamımız artıb. Dünyanın ən gözəl dostları bizimlədir. Türkiyənin, Pakistanın bizə dəstəyi danılmazdır. Bu, möhtəşəm bir dostluqdur.

Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq qürürvercidir. Şəxsən mənim üçün Rəcəb Tayyib Ərdoğan bir qəhrəmana çevrilib.

Şanlı, müzəffər ordumuz inşallah öz tarixi missiyasını çox yaxın bir zamanda yerinə yetirəcək və artıq nəinki inanıram, hətta əminəm ki, Ermənistan ordusu Dağlıq Qarabağdan tamamilə rədd olacaq. Düzdür, bu asan başa gəlməyəcək. Çünki bu illər ərzində onların "qardaş"ları onlara hərb



işini öyrədiblər, boş oturmayıblar. Ola bilər ki, onlar güclü müdafiə sistemi qurublar, amma onlarda bir şey yoxdur - özünə inam. Onlar bilirdilər ki, nə vaxtsa bu gün gələcək.

***Yazıçı Pərviz Cəbrayıl:*** Budəfəki hərbi əməliyyatlarla bağlı qısaca belə demək olar: Bu həna, o hənadan deyil. Bu, irimiqyaslı və ustalıqla, hə də tam siyasi iradə göstərilərək üstün hərbi taktikayla hazırlanmış anti-terror əməliyyatıdır. Ordumuzun lazım gəldiyi anda necə ruh yüksəkliyinə, necə peşəkarlığa malik olduğu üzə çıxdı.

Sadəcə, bu Ordu inanmalıdır. İnanmalıdır ki, onun arxasında siyasi iradə dayanır və bu dəfə bunu hiss edirlər. Dünyada Azərbaycan Ordusunun qələbəsindən daha asan bir şey təsəvvür edilə bilməz, çünki bu əsgər haqq işi uğurnda döyüşdüyünə inanır, öz torpaqlarını azad etdiyini bilir. Ermənilər isə sadəcə kənar yardımlardan və fürsətdən istifadə edərək özgə torpaqlarını işğal edib, bunu özləri də başa düşür. Paşinyan özü də bunu bilir və çaşaraq boş yerə "Qarabağ Azərbaycanındır" demədi. O, çaşmadı əslində, o sözü ona öz şüuraltısı dedirtdi. Ona görə də qələbənin bizim olacağına heç bir şübhəm yoxdur. Mən həmişə o fikirdə olmuşam ki, bu xalqa sən inam ver, yolunu kəsmə, əliyalın olsa belə, getsin bütün torpaqlarını alsın. Əli yalın olsun, başı boş olmasın, başında boşluq olmasın sadəcə. Sevincə həsrət qalmış millətin qarşısını heç nə kəsə bilməz.

Bu haqq savaşının başlaması bizə bir daha dostumuzun, düşmənimizin kim olduğunu da göstərdi. Zatən bilirdik, ama indi daha aydın göründü. Arxalı köpək qurd basar, deyərlər. İndi gör qurdun arxasında qurd olanda nə olur!

Bildiyim, əmin olduğum bir şey də var: bu savaşı dayandırmaq vətənə xəyanətdir! Laçın və Şuşa alınmayana kimi sevinməyin kəm olduğunu



düşünürəm. Eynən futbolda olduğu kimi: böyük hesabla uduzan komandanın ard-arda vurduğu qollara sevinmək olar, ancaq tam məğlub etməyənə, irəli çıxıb 90 dəqiqəni bitirməyənə kimi bayram etmək olmaz...

***Aktyor Rasim Cəfər:*** Hisslərim, emosiyalarım o həddədir ki, heç bilmirəm nə deyim?! Həddindən artıq çox sevinirəm. Bu hadisələr 88-ci ildə başlayanda mənim 10 yaşım vardı. Hər şey o qədər dəqiq yadımdadır ki. Qarabağın işğal olunması və s. Mən həmişə istəyirdim ki, bu döyüşlərdə iştirak edim, çünki əsgərlik dövrümə düşmədi və həmişə hər yerdə deyirdim ki, bu problemi bizdən sonrakı nəsillərə, övladlarımıza qoymamalıyıq. Bunu biz həll eləməliyik . Ya kişi kimi gedib Qarabağı almalıyıq, ya da ki...

**Yəni son nəfərimizə kimi döyüşüb torpaqları geri qaytarmağın tərəfindəyəm. Allah qoysa, biz o torpaqları geri qaytaracağıq. Mən ordumuza, komandanlığa inanıram. Baxmayaraq ki, yaşım səfərbərlik üçün uyğun deyil, amma şəxsən böyük məmnuniyyətlə, böyük ruh yüksəkliyi ilə döyüşlərdə iştirak etməyə hazıram, razıyam və gözləyirəm. Mən Cıdır düzündə at çapmaq istəyirəm. Tanrı bizi qorusun, bizə güc versin!**

**Eminquey**

# "Bu gün Azərbaycan xalqına qələbə yaraşır"

## Sənətkarlar danışdılar

**Son günlər Azərbaycan Ordusunun göstərdiyi rəşadət tariximizdə yeni səhifəni açır. Bu səhifəni biz yazırıq, bu səhifəni Azərbaycan xalqı yazır. Mövcud vəziyyətlə bağlı Azərbaycanın görkəmli şəxslərinin də fikirlərini öyrənməyə çalışdıq və Adalet.az saytı olaraq onların dediklərini sizə təqdim edirik.**

### *"Həmişə arzum bu olub ki..."*

**Xalq artisti Rasim Balayev:** "Neçə gündür ki, sevinc göz yaşları içindəyəm. Əks-hücumları çoxdandır, gözləyirdim. 30 il ərzində mövcud olan başıaşağılığımız aradan qaldırıldı. Bu illərdə hər gün fikirləşirdim ki, görəsən, necə olacaq? Görəsən, öləcəm, torpaqlarımızın işğaldan azad olunmasını görməyəcəm? Bax bu suallar məni yorurdu. Həmişə arzum bu olub ki, ey Allah, bu Qarabağın azadlığını görməyi mənə nəsib elə, ondan sonra canımı alarsan. Allah Cənab Prezidentimizin canını sağ etsin. Hər zaman insanlar deyirdi ki, bizim ordumuz güclüdürsə, niyə gedib torpaqlarımızı almırıq? Daha düşünmürdülər ki, bunun üçün zaman lazımdır, bunun yolları var. Elə-belə heç nə olmur. Bütün dünyaya xain ermənilər sübut etməyə çalışırdılar ki, haqlıdırlar. Bunlar guya Qarabağı azad ediblər. Ermənilər xain millətdirlər. Onların heç vaxt dövlətləri olmayıb.

Üç-dörd gündür, yerə-göyə sığmıram ki, nəhayət bu günü gördüm. Yaxşı yadımdadır, Ağsu rayonunda polis rəisinin müavini erməni idi. O vaxt ağlımıza gəlməzdi ki, onlar nə vaxtsa torpaqlarımızı işğal edərlər. Həmin o erməni müavin Ağsuda camaatda olan silahların alınması üçün tapırışıq vermişdi, yalnız 3 erməni kəndində olan ermənilərin əlindən silahlar alınmamışdı. Biz nə bilək ki, bunların məqsədi başqadır. O vaxt rəhbərlikdə olanlar belə düşünmürdülər ki, niyə belə qərar verilib? O vaxt qışqırıq idi, vahid ordumuz yox idi.

Dünən Pişikyan (O, Paşinyanı nəzərdə tutur) gördünüz, necə susdu?! Cənab Prezident danışığı ilə onu bir daha məhv etdi. Pişikyan sözünü deyə bilmədi. Pişikyan söylədi ki, Qarabağ problemi müharibə ilə həll olunmaz. Bu alçağa sual verək lazımdır





ki, ermənilər Qarabağı müharibə ilə işğal etmədi? Bəs biz torpaqlarımızı necə almalıyıq? Danışıqlara razılaşmırsan, biz də əks-hücum əməliyyatı keçirtməliyik. Sonra söyləyir ki, Azərbaycana xaricdən dəstək gəlir. Cənab Prezident yaxşı cavabını verdi, dedi ki, 10 milyonluq Azərbaycan xalqı 2 milyonluq ermənilərə qarşı tək vuruşur. Bu ermənilər görün necə yalançı millətdirlər. Mən kiməsə qarğış etsəm, deyərəm ki, erməni kimi qonşun olsun. Çox riyakar millətdirlər. Allahın izni ilə Qarabağı alaq, amma bundan sonra ermənilərə qarşı 1 yox, 100 dəfə ayıq olmalıyıq. Onların damarında axan qan şeytan qanıdır, çox alçaq millətdirlər. Erməniləri heç vaxt heç nəyə yaxın buraxmamalıyıq. Düzdür, ermənilərin bizə qarşı düşmənçilik siyasəti əvvəllər də olub, lakin biz unutmuşuq. Amma bu dəfə unutmamalıyıq. Bunların xislətinə lənət olsun. Bu gün şükür Allaha ki, güclü ordumuz var. Bu gün Azərbaycan xalqına qələbə yaraşır.

### *"Gizlin yollarla özünümüdafiə batalyonlarına köməklik göstərirdim"*

**Xalq artisti Afaq Bəşirqızı:** "Çox sevindirici günləri yaşayırıq. Düzdür, balalarımız şəhid olur, amma belə bir deyim var: "Torpaq, uğrunda ölən varsa, Vətəndir". Əks-hücum olmalı idi, müharibə olmalı idi. Çünki erməni kimi həyasızlardan torpaqlarımızı danışıqlar yolu ilə almaq mümkün deyildi. 30 ildir ki, dözürük. Ancaq danışıqlar, danışıqlar, danışıqlar... Bu danışıqlar da onların xeyrinə olur. Bilirsiniz ki, onların havadarları onları necə müdafiə edirlər, yiyəsizlərə necə yiyə çıxırlar.

Azərbaycan xalqının Vətən sevgisi, qeyrətidir ki, biz bu haqq müharibəsini aparırıq. 90-cı illərdə də bugünkü kimi Azərbaycan oğullarının müharibə istəyi var idi ki, yetər ki, torpaqlarımız işğal olunmasın. Dəfələrlə qeyd edirəm ki, 90-cı illərdə oğullarımız Qarabağ uğrunda can qoydular, nə qədər ailələri qorudular. Canpolad idi, Allahverdi idi, Fred Asif idi, çoxdur, belə oğulların sayı, onları heç vaxt unuda bilmərəm. O oğulların Azərbaycan xalqı, Azərbaycan dövləti üçün elədikləri inanın ki, nə yazıya sığmaz, nə də sözə gəlməz. Təsəvvür edin ki, onlarda o qədər qeyrət, Vətən sevgisi, ana-bacı sevgisi var idi. 90-cı illərdə sadəcə silah çox deyildi. Onda bir quru əl, bir də Vətən sevgisi var idi. Allaha çox şükürlər ki, indi müasir silahlarla silahlanmışıq. Allaha çox şükürlər olsun ki, yenilməz, qüdrətli ordumuz var. Bu gün şəhidi oluruq, müharibə gedən bölgələrimizdə heç kim evindən çıxmır, heç kim qaçmır. İçi qocalarımız qarışıq hər kəs ordumuza güvənir.

90-cı illərdə də hər birimiz əlimizdən gələni edirdik. Mənim əsas yerim Qubadlı, Laçın, Şuşa idi. Mən ora tez-tez gedib gəlirdim. Arif Paşayevin könüllü batalyonu əlindən gələni edirdi. Bugünkü marşın yaranmasının səbəbkarı Laçında olan əsgər idi. Babasının yazdığı sözləri əsgər verdi və Cavanşir Quliyev də bəstələdi. Düşmən bu gün o mahnını eşidəndə belə əsəbiləşir.

O vaxt gücüm çatan qədər gizlin yollarla özünümüdafiə batalyonlarına köməklik göstərirdim. İndiki ilə o vaxtki ordunun fərqi var. O vaxt heç ordu da deyildi, könüllü batalyon idi. Bilirsiniz, nədir? O vaxt təcrübə yox idi. Bu gün isə qüdrətli ordumuz var.

İndiki anda çox diqqətli olmalıyıq, içimizdə də düşmənlər var, odur ki, ehtiyatlı olmalıyıq. Bütün xalqımdan, xalqımın balalarından çox xahiş edirəm, xırda qeybətlərə getməyin, lazımsız söhbətlərə getməyin. Bu qədər qalibiyyət xəbərlərinin qarşısında, şəhid ruhlarının qarşısında xırda söhbətlərə getməyin. Kimdənsə incimisiniz, kimdənsə narazısınız, bunların hamısı bu dəqiqə heç söhbətləridir. Sosial şəbəkələrdə artıq-əskik nəsə yazmaq bizə yaraşmaz. Yadda saxlamaq lazımdır ki, sosial şəbəkələri ermənilər də oxuyurlar. Odur ki, diqqətli olmalıyıq".

**Rövşən Tahir**

---

***"Mahnılarım xalq üçün, gənclər üçün yazılıb. O vaxt məqsədimiz o olub ki, Vətənpərvərlik ruhunda mahnılar yazaq və ordumuza dəstək olaq. Məqsədimiz o olub ki, gələcək nəsillər bu mahnıların təsiri altında böyüsünlər və Vətənpərvər olsunlar". "Ədalət" qəzetinin qonağı "Cənab Leytenant", "İgid Əsgər", "Vətən əmanəti" kimi hərbi-vətənpərvərlik marşları və mahnıların müəllifi Şəmistan Əlizamanlıdır.***

**-Mahnılarınızın populyarlıq qazanmasının səbəbini nədə görürsünüz?**

# "Qələbə bizimlədir"



-Mahnıların sevilməsinin səbəbini onların sadə və səmimi yazılmasında görürəm. Mahnılar müharibə illərində yazıldığı üçün insanların qəlbinə yol tapıb.

**-Şəmistan müəllim, sizin mahnılarınız bir növ elə əsgər marşı hesab olunur. Əsgərlər bu mahnıları çox ifa edirlər. Elə gənclər də. Mahnılarınızın bu qədər sevildiyini görəndə hansı hissləri keçirirsiniz?**

-Xoş duyğular keçirirəm. Mahnılarım xalq üçün, gənclər üçün yazılıb. O vaxt məqsədimiz o olub ki, Vətənpərvərlik ruhunda mahnılar yazaq və ordumuza dəstək olaq. Məqsədimiz o olub ki, gələcək nəsillər bu mahnıların təsiri altında böyüsünlər və Vətənpərvər olsunlar.

**-Bəziləri deyir ki, ordu-cəmiyyət münasibətlərində açıqlıq olmalıdır, amma bunun əksini düşünənlər də var. Siz bu məsələdə hansı fikirdəsiniz?**

-Müharibə qaydalarına, müharibə qanunlarına uyğun informasiyalar verilməlidir. Xalqımız bir mənbədən informasiya almalıdır, o da ki, Müdafiə Nazirliyinin rəsmi saytından.

**-"İgid əsgər" mahnısından danışaq. Bizdə olan məlumata görə, bu mahnının çox maraqlı bir tarixçəsi var. Deyilənlərə görə, bu mahnın tarixi hərbi hospitaldan başlayır...**

-Sözləri və musiqisi Şahin Musaoğluya məxsusdur. 1993-cü ilin mart ayında bu mahnını ifa etmişəm. Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə sağlığında söz vermişdim ki, bu mahnını oxuyacam və sənə ithaf edəcəm.

Sonra Yusif şəhid oldu və bu mahnını eşidə bilmədi. O zaman Qədirli adına xəstəxanada Yusiflə birlikdə müalicə alırdıq. Müalicə vaxtı bir otaqda qalırdıq.

Həmin xəstəxananın həkimi Şahin Musaoğlu tez-tez yanımıza gəlirdi. Bir dəfə söylədi ki, belə bir mahnı yazmışam və başladı zümzümə etməyə. Bu mahnı Yusifin çox xoşuna gəldi. Sonra gördüm ki, Yusif də bu mahnını oxuyur, zarafatyana dedim ki, xoşuna gəlirsə, mən oxuyacam və sənə ithaf edəcəm. Sonra da Yusif şəhid oldu və mən də söz verdiyim üçün həmin mahnını oxudum.

**-Müharibədə iştirak etmisiniz. Hansı xatirələriniz var?**

-Müharibə ilə bağlı o qədər xatirələrim var ki. Çoxdur xatirələr. Bilmirəm hansını danışım.

**-Bir də mühasirəyə də düşmüsünüz...**

-Mühasirəyə düşüb çıxmışıq da. Ağdərə uğrunda gedən döyüşlərdə mühasirəyə düşdük, sonra kömək gəldi və mühasirədən çıxdıq. İlk döyüş xatirəsi budur. Ondan sonra Yusiflə Ağdərədə tanış olduq. Xatirələrdən sual verəndə demədim, ən xoş xatirəm Yusiflə tanış olmağım və dostluq etməyim olub.

**-Qarabağ probleminə qayıtmaq istərdim. Siz Qarabağ müharibəsində bir çox əməliyyatlarda iştirak etmisiniz. Hazırkı vəziyyət haqqında nə deyə bilərsiniz?**

-Hazırki durum onu deyir ki, qələbə bizim olacaq. Ordumuzun manevsiz irəliləməsi üçün, uğurlu əks-hücum əməliyyatları aparması üçün hər şey nəzərə alınıb. Yəni ehtimal variantlara qədər hər şey diqqətdən keçirilib. Odur ki, ordumuz qarşısına qoyulan tapşırıqları uğurla yerinə yetirəcək və yetirməkdədir.

**-Azərbaycan xalqına çatdırmaq istədyiniz mesaj varmı?**

-Ordumuza güvənsinlər. Ordumuz istənilən döyüş əməliyyatını yerinə yetirməyə qadirdir və bunu da sübut edir. Ancaq Müdafiə Nazirliyinin məlumatlarını dinləsinlər və ordumuza dua etsinlər.

İnşaAllah, ordumuz xalqımızın ümidlərini doğruldacaq. Ordumuzda əhval-ruhiyyə yüksəkdir və qələbə bizimlədir.

**Rövşən Tahir**

---



*Nurəddin ƏDİLOĞU*

# *Bizim ən güclü silahımız Vətən sevgisidir*

**Bu gün böyükdən-kiçiyə hər bir azərbaycanlının qəlbinə hakim olan vətənpərvərlik ruhu xalqımızın düşmən üzərində qələbəsinə inamını gücləndirir və Silahlı Qüvvələrimizdə məğlubedilməzlik hissi yaradır**

27 sentyabr müstəqil Azərbaycanımızın hərb tarixinə qızıl hərflərlə yazıldı. Erməni faşistlərinin növbəti dəfə mülki vətəndaşlarımızı hədəfə almasına, eləcə də təmas xətti boyunca erməni təxribatına cavab olaraq ordumuzun əks-həmləsi xeyirin şər üzərində qələbəsinə gedən yolun başlanğıcı oldu. Bu yol Azərbaycan Ordusunu daha möhtəşəm qələbələrə aparacaq.

### *Ötən bazar günü*

***başlanan və bu gün davam edən müharibə Azərbaycan xalqının seçimi deyil. Otuz ilə yaxın davam edən münaqişəni sülh yolu ilə həll edilməsi ilə bağlı dövlətimizn göstərdiyi səylərə, xüsusilə beynəlxalq qurumlara ünvanladığı saysız-hesabsız bəyanatlara, müraciətlərə ədalətsiz yanaşmalar fonunda Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı vəhşiliyi Milli Orduumuzu yenidən müharibəyə cəlb etdi.***

Dünya ictimaiyyəti yaxşı bilir ki, müharibə Azərbaycanın işğal olunmuş ərazilərində gedir. Təbii ki, otuz il dünyadan haqq- ədalət gözləyən Azərbaycana beynəlxalq qurumların deyəsi heç bir sözü yoxdur! Yer kürəsində Azərbaycan kimi qüdrətli, nefti, dənizi, güclü ordusu olan ölkə şübhəsiz, mülki əhalisinin düşmən təcavüzünə məruz qalmasına sonsuzluğa qədər dözə bilməzdi. O Azərbaycan ki, şairləri, yazıçıları Vətən haqqında digər xalqların qələm adamlarından da çoxlu əsərlər yazıblar, bəstəkarları da vətənpərvərlik ruhunda mahnılar bəstələyiblər. O Azərbaycan ki, heç vaxt dünyadan işığını, nurunu, bir sözlə, xeyirxahlığını əsirgəməyib. Amma dünya birliyi Odlar Yurdunun dənizin dibində sərvətlərini görsə də, 30 ilə yaxındır torpağının üstündə Qarabağ dərdini, itkisini "görmür." Xocalı harayını "eşitməyən" beynəlxalq aləm bu il pandemiya dünyanı caynağına aldığı dövrdə dəfələrlə Azərbaycanın sərhədlərində düşmənin mülki əhaliyə qarşı törətdiyi təxribat və təcavüzə etirazını bildirmədi. Bu da işğalçı Ermənistana beynəlxalq hüquq normalarına məhəl qoymadan ölkəmizə qarşı təcavüzkarlıq siyasətini davam etməyə, şou xarakterli bəyanatlar səsləndirməyə fürsət verdi. Dünən bir neçə dəfə Rusiyanın telekanallarında Paşinyanın qorxaq tülkü kimi quyruğunu qısıb oturmuş halda göründüləri yayımlarındı. O, böyük həyacan içində ondan-bundan kömək dilənirdi.

İndi Azərbaycan iki cəbhədə düşmənlə mübarizə aparır: beşəriyyətin gözəgörünməz düşməni adlanan koronavirus pandemiyası və mülki əhaliyə iriçaplı silahlardan atəş açan erməni faşizmi ilə. Odur ki, belə bir şəraitdə biz hamımız Vətən sevgisi ilə silahlanmalı, Milli Ordumuzla həmrəy olduğumuzu, dövlətimizin haqq işini dəstəklədiyimizi nümayiş etdirməliyik.

### *Konstitusiyamızda*

***da dövlətin mənafeyini qorumaq, nüfuzunun möhkəmlənməsinə xidmət etmək Azərbaycan vətəndaşlarının vəzifəsi kimi aydın göstərilib. Bu gün gənclərin milli ruhda tərbiyəsi, onlara vətənpərvərlik və milli mənlik şüurunun aşılanması aktual məsələdir. Bu sahədə tədris ocaqlarının, valideynlərin, ictimai rəyə təsir gücünə malik KİV-in əvəzsiz rolu var.***

Vətən tarixini, vətənpərvərliyi aşılamaq, bu mövzuda Azərbaycan TV-lərində, radiosinda verilişlərin sayını artırmaq indi daha vacibdir. Qəlbində vətənpərvərlik ruhu hakim olan döyüşçülərimizin qarşısında isə ən hiyləgər düşmən belə tab gətirə bilməz.

Vətənə xidmət böyük məktəbdir. Bu gün Milli Ordumuzda Vətən sevgisini və yurd uğrunda son nəfəsədək döyüşmək əzmini özünə örnək bilənlər daha çoxdur.Bu ruhu daşıyan əsgər və zabitlərimizin çoxu Qarabağ müharibəsi ilə həmyaşdırlar.

Son iki gündə Vətənini, yurdunu sevən, dövlət atributlarına hörmətlə yanaşan, üçrəngli bayrağımızı uca tutan cəsur oğullarımızın doğma torpaqlarını azad etmək uğrunda fədakarlığının şahidi oluruq. Bu gün Azərbaycan Ordusunun sıralarında yüzlərlə igid əsgər və zabit var ki, yaxın tarixdə onların imzasına şahid olacağıq.

İndi seçim Ermənistanındır: ya xoşluqla işğal altında saxladığı Azərbaycan ərazilərindən rədd olub getməli, ya da Azərbaycan Ordusunun Dağlıq Qarabağa və zəbt olunmuş digər ərazilərə edəcəyi zəfər yürüşünə hazır olmalıdır. Sonuncu seçimin ermənilər üçün əsl fəlakət olacağını düşmənin özü də yaxşı başa düşür. Çünki ordumuzun döyüşün taleyini həll edəcək istənilən parametr üzrə Ermənistan silahlı qüvvələrindən dəfələrlə üstün olduğunu bilir. Düşmən onu da yaxşı dərk edir ki, özünü mənəvi-psixoloji hazırlıq, döyüş ruhu, maddi-texniki təminat, şəxsi heyətin say tərkibi baxımından qüdrətli azərbaycan Ordusu ilə heç müqayisə edə bilməz. Çünki fərq nisbəti, peşəkarlıq dəfələrlə böyükdür. Azərbaycan xalqının isə öz ordusuna güvəni, inamı, etibarı, etimadı tamdır. Xalqımız əmindir ki, Vətən sevgisi ilə silahlanmış igid əsgərlərimiz əzəli Azərbaycan torpaqlarını düşmənlərdən azad edəcək. Qəhrəmanları olmayan xalqın qələbəsi olmur!

**Türk müsəlman xalqına sonsuz nifrəti gec-tez erməni faşistlərini ağılsız duruma salacaq. Onlar da Hitler Almaniyası kimi məğlubiyyətin acısını dadacaqlar. Azərbaycan Ordusunun döyüş əzmi sayəsində çatacağımız Qələbə günü uzaqda deyil. Allah ordumuzu tezliklə müzəffər etsin.**

---

# Səfərbərlik Xidməti: Hərbi xidmətə çağırılan vətəndaşlarımız böyük ruh yüksəkliyi ilə gəlirlər

**Vətən sevgisi, yurd təəssübü milli mənlik şüurunun təməl daşlarıdır! Bu günlərdə sarsılmaz xalq-ordu birliyi, həmrəyliyi nümayiş etdirən vətəndaşlarımız cəsur oğullarını Azərbaycan Ordusu sıralarına təntənə ilə yola salmaqdadır.**

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən Adalet.az-a verilən məlumata görə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" Sərəncamının icrası istiqamətində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi vəzifəlilərin hərbi hissələrə yola salınmasını təmin etmək üçün zəruri tədbirləri operativ qaydada həyata keçirir.



Respublikanın şəhər və rayonlarında qismən səfərbərlik üzrə hərbi xidmətə çağırılan vətəndaşlarımız Xidmətin yerli struktur bölmələrinə böyük ruh yüksəkliyi ilə gəlirlər. Hərbi vəzifəlilər cəbhənin bütün istiqamətlərində uğurlu əks-hücum əməliyyatı həyata keçirərək düşmənə sarsıdıcı zərbələr vuran Azərbaycan Ordusu sıralarına qələbə əhval ruhiyyəsi ilə yola düşürlər. İnsanların izdihamla, sevgi ilə bu tədbirlərdə iştirakı xalqımızın Ordumuza və Ali Baş Komandana böyük inamının göstəricisidir.

Bu gün hamının bir istəyi var: torpaqlarımızı düşmən tapdağından azad etmək!

Qeyd edək ki, vətəndaşların hərbi xidmətə çağırılması müvafiq normativ hüquqi aktlara əsasən həyata keçirilir. Bununla belə Xidmətin aparatına, yerli idarə, şöbə və bölmələrinə, elektron resurslarına könüllü olaraq cəbhə bölgəsinə gedərək döyüşmək və əsgərlərimizə lazımi köməklik göstərmək istəyən böyük sayda vətəndaşlarımız tərəfindən müraciətlər daxil olmaqdadır.

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Vətənin müdafiəsini qanunla müəyyən edilmiş vəzifədən əlavə, özünə mənəvi borc bilən vətəndaşlarımıza göstərdikləri yüksək vətənpərvərliyə görə bir daha təşəkkürünü bildirir.**

---

# Mixail Qalustyan Murad Ariflə yazışdı: "İtkilərinizə görə sizə başsağlığı verirəm"

**Rusiyanın erməni əsilli komediya aktyoru, şoumen Mixail Qalustyan instagram səhifəsində izləyicilərini çaşdırmaq məqsədilə yazır ki, guya Azərbaycan tərəfi erməni əhalisinə qarşı aqressiya tətbiq edir və ermənilər cavab tədbirləri görmək məcburiyyətindədir.**

Azərbaycanlı ifaçı, bəstəkar Murad Arif Qalustyanın paylaşımına cavab yazmağı özünə borc bilib. O, Ermənistanı işğalçı və aqressor adlandıraraq erməni şoumenə Xocalı soyqırımını xatırladaraq ermənilər "böyük qardaş"larından asılı olmadıqla ittiham edib. Bundan sonra Qalustyan Murad Arifə şəxsi mesaj göndərərək şəxsi münasibətləri aydınlaşdırmaq fikri olmadığı üçün onun paylaşımlarına açıq münasibət bildirməmısini xahiş edib. Murad Arif Qalustyana bu cür paylaşımlardan istifadə etməmişdən öncə münaqişənin detallarını və Qarabağ tarixini öyrənməyi tövsiyə edib. O, bildirib ki, Ermənistan Dağlıq Qarabağı və onun ətrafında olan 7 rayonu işğal edib. Murad Arif bu işğalla bağlı həmçinin BMT-nin 4 qətnaməsini xatırladıb.

Qalustyan cavab olaraq bildirib ki, onun tövsiyələrinə əməl edərək məsələni öyrənəcək. O, artistlərin bu məsələni həll etmək gücünün olmadığını və problemin beynəlxalq səviyyədə həll olunaraq sülh əldə olunmasını istədiyini deyib.





Murad Arif ona bir daha xatırladıb ki, Qarabağ müharibəsində iki böyük qardaşını itirib, həmçinin milyonlarla qaçqın və məcburi köçkün üç onillikdir ki, öz doğma torpaqlarına qayıda bilmir.

**Qalustyan itkilərə görə Murad Arifə başsağlığı verib.**

**Eminquey**

# Müharibə və mərhəmət



*Allahverdi Eminov*

(II məqalə)

**Belə düşünürəm ki, həyatımızda çox nəsnələrin əsası mərhəmətlə (rəhmlə) bağlıdır: həm keçmişimizdə, həm indimizdə. Bəs bu anlam nədən yaranıbdır? Cavabını belə deyərdim: - Kədərdən. Kədəri də müharibə gətiribdir.**

İnsanlar ağılları kəsəndən müharibələrlə üzləşmiş, iştirakçı olmuş və görmüş ki, taun şəhərləri, kəndləri viranə qoymuş, yamyaşıl tarlaları şumlayıb ölüm taxılı əkmişdir.

Uşaqlıq xatirələrimdə real müharibə yoxdur, ancaq oxuduqlarım və müharibə iştirakçılarının söylədikləri yaddaşımda qalmışdır: adamlar zülmətlə əlləşmiş, evlərindən meşələrə qaçmış, günəş şəfəqlərindən süzülən qırmızımtıl zolaqlar, səmada uçan təyyarələrdən yer üzünə səpələnən bombalar. Və bir epizod: qorxudan vahimələnən qızcığazın anasının dizi üstə göz yaşını axıtması. Meşənin həmişəlik sakinləri quşlar isə nəğmələrini oxumaqda. Səhər açılır, hava nəmişkən və üşürgəndi. Ana və balanın sifəti çəkilmişdi, beli bükülmüşdü. Qadının dırnağı gizildəyirdi. Haraya kimsəni səsləmək istəyirdi, qışqırmırdı, sanki gücünə qənaət etmək istəyirdi, nəmşər gözlərindən işıq süzülürdü. Ananı müdhiş tənhalıq, möhkəm sıxıntı hissi qoynuna almışdı, vahimənin ağırlığı altında hıçqırırdı.

### *Meşə toranlığı*

və sərinliyi quşları budaqlarından uçururdu. Üfüq qıpqırmızı qan rəngində süzülüb uzaqlaşırdı, göy üzünün alatoranı çəkilməkdə idi. Ananın qəlbinin göyüntüləri isə çəkilməmişdi. Bir sözlə, dəhşət və ölüm səltənəti uzaqlarda dolaşırdı. Arxa cəbhədə adamları dəhşət bürüyür, göz yaşları təsəlli verirdi. Bir təsəlli də o idi, tanıdıqlarım insanlar müharibədən qorxmurdular, qalib ümidləriylə yaşamaqda idilər, idrak edirdilər ki, qaranlıq, barıt qoxusu, aclıq işığı məhv edə bilməz, günəş zülməti qovacaq, insan ruhu mərhəmətlidir, ədalətli müharibə riya-karlığa qalib gələcəkdir. O xalqın (millətin) ürəyində, zehniyyətində, əxlaqında rəhmlik (mərhəmətlik) zatəndir, mütləq qələbə olacaqdır!

... O, hər şeyi başqalarından ona görə yaxşı görməyi bacarırdı ki, geniş biliyə yiyələnmişdi, əsgər yoldaşlarından fərqlənmirdi. Əgər hər bir silahdaşı yalnız özü barədə fikirləşirdisə, əsgər yaşında orduda xidmət edən cavan oğlan təkbaşına yoldaşlarını da düşünürdü: əgər bir əsgər ilk öncə özünü müdafiə edirdisə o, əsla qorunmaq üçün məqam axtarmırdı, ona görə ki, əvvəlcədən döyüşməyə özünü məhkum etmişdi.

### *O, siqaret çəkmək üçün*

***balaca dikdirdə oturdu ki, həm də ətrafı görə bilsin. Özünü kəndində hiss etdi: Akuşa çayı - Kürün qolu sakit-sakit axır, çayın yamyaşıl sahili, onun üzərilə uçan quşlar harayasa tələsir. Söyüdlük və tozağaclarının budaqları günəş işığının qarşısını tutur, kölgəlik yaradırdı. Aşağıda, həyətlərdə üzüm bağları görünürdü. Bu çayaşağı kəndlər elə bil bir rahatlıq, bolluq ifadə edir və bunun - rahatlığın, bolluğun özündən iftixar hissi duyulurdu.***

Tarixən bir simvol olub: Qılınc! Sonra bu məfhuma Bayraq əlavə olunub və aforizm yaranıb: - Mən öz qılıncımı və bayrağımı sevirəm. Qılınc müharibə - ölüm rəmzinə çevrildi Koroğluların qolunda, bayraq isə sülh rəmzinə çevrildi, həyatı təmsil etdi, insanları Vətənini - torpağını qorumağa çağırdı, işğalçılara göz dağı oldu. Mərhəmət naminə əsgərlərimiz istəmirdi qılıncımız qanla yuyulsun. Bu rəhmlik əzəldən bizim atar damarlarımızda hərəkətdədir, neynəyək? Allah - Təala bizləri - azəri türklərini belə xasiyyətdə xəlq etmişdir. O, ordu quruculuğunda fəal iştirak etməyə böyük üstünlük verir, gənc əsgərlərlə tanış olur, fikirlərini onlarla bölüşürdü, ümid və arzularını sönməyə qoymurdu, hərbi intizama ciddi yanaşırdı, orduda vahid rəhbərlik tərəfdarıdır. Muzdlu dəstələrin əleyhinə çıxırdı: - Onları pul maraqlandırır torpaq yox, - deyirdi. - Bizim milli ordumuz formalaşmalıdır özümüzün döyüşçülərimizlə. Muzdlu əsgərlər dəliqanlı həyata vərdiş etmişlər. Zabitlər gənc çağırışçıları söyüşə tutmamalı, kobud rəftara yol verməməlidir. - Bu fikrində israrla dururdu: - Zabitlərdə mərhəmət hissi olmazsa əsgərləri qələbəyə ümid bəsləməkdə, ümid bağlamaqda çətinliklərlə üzləşər.

### *Müharibədə qələbəni*

yalnız döyüşçü - əsgərlər, yaxud zabitlər qazandırmır, psixoloji hazırlıq və durum böyük mənəvi - ruhi təkandır, bir şərtlə, arxa cəbhədə idarə edən məmur qüvvələri insanlıq borcunu yerinə yetirsinlər, onlar qəlblərinin hansısa nöqtəsində gizlənmiş mərhəmət hissini oyatsınlar, dövlətin onlara olan etimadına vicdanla cavab versinlər. Əyinlərinə çox bahalı paltar geyinmiş belə vəzifəli məmurlar ucuz yolları seçməsinlər, onlar Dövlət başçısı qarşısında and içmişlər, qoşa əlləri sinədə təzim etmişlər. Amma az sonra hər vədi unutdular, ürəkbulandırıcı vərdişlərə alışdılar. Hər bir təbəqə öz yerini və mövqeyini anlamalıdır, hər kəs öz işinə cavabdehlik daşımalıdır. Xalq isə qələbə gözləyir, halbuki, tamahkar, korrupsioner, yerlibaz təbəqə liderlərinin hərəkəti xalqın məğlubiyyətidir. Buna qəti yol verilməməlidir, onların niyyətini yubanmadan puça döndərmək vacibdir, bunlara "dədəboyu" güzəştə gedəndə harınlaşırlar, mərhəmətsizləşirlər, rəhmsizləşirlər...

**Müharibə illərində xalqın hissləri tarıma çəkilir, şahə qalxır: tərbiyə almış camaatın oğlanları düşmənlə pəncələşir, tərbiyə görməmişin oğlanları erməni qızına evlənir, qanını qarışdırır. Ondan törəyən oğlu heç bir halda dayısına güllə atmaz! Müharibə insan əxlaqının "məhəg daşı"dır, sınaqdan çıxmış faktdır, heç bir vətəndaş varlanmaq haqqında düşünmür, torpağın salamatlığı barədə fikirləşir, haram yolla qazanc, mənimsəmə ehtirası əsas təhrikedici stimul kimi təzahür etmir, əxlaqi şüurda, praktik davranışda sərvətə meyl, var - dövlət qazanmaq özünə yer tapmır. Bu faktı elm də sübuta yetirmiş, dünya bədii ədəbiyyatında əksini tapmışdır.**

Görünür gec-tez ifşasını tapan onlarla, yüzlərlə vəzifə həddini aşan, övladlarını müharibədən (vurğulamışam yazılarımda) yayındıran (rəsmi sərəncamların, üstünlüklərin və şəxsi nüfuzların vasitəsilə) çinovniklər üçün Vətən anlayışı ötəri hissdir, "cəbhə hər halda boş deyil" pıçıltısına üstünlük verir: bu hiss varlanmaq ehtirasının qarşısında sıfıra bərabər deyilmi?!

***Şəxsiyyət onlar üçün elə də əhəmiyyət daşımır, ciddi təbliğatı, yazılanları nəsihətçilik hesab edirlər, bəlkə də xurafat! Heyifsilənirəm ki, hələ də zahiri görümə, "özünü çəkməyə", filankəsin qohumluğu çatan adama hələ də vəzifə stollarını boşaldırlar, soruşmurlar Qarabağ savaşına oğlan-larından yola salmısanmı? Müharibədə şəhid vermiş valideynə yardımçı olmusanmı? Damın altında qalmış dul, yaşlı anaya yoluxmusanmı? Fransız filosofu Ş.Monteskye yazmışdır ki, insanlara onların zahiri istedadlarına və ləyaqətlərinə görə yox, onların həqiqi keyfiyyətləinə görə hörmət etmək lazımdır.***

***Mənim üçün bu, şəxsi ləyaqətdir!***

### *Qəfil, obyektiv əsası olmayan*

çağdaş bir silsilə varlı biznesmenlər, əlləri ovucda sıxılan məmurlar açıq-aşkar, həya etmədən "əyləncəli əxlaqı" üstün tuturlar, iki ehtiras tipinə: şəhvaniliyə və təkəbbürlüyə aşinalaşmışlar, özlərində qeyri-leqal "kefçilik" tipini formalaşdırmışlar, kirdarlarını itirmiş atalar "estafeti" övladlarına ötürmüşlər. Mərhəmətdən uzaq tərbiyə alan "dünənki uşaqlar" ən qiymətli maşınlara oturur, qəza törədir, restoranlarda şuluq salırlar.

Bunların arasında general, deputat, nazir övladları da yer almışlar. Mən bu cür gəncləri əxlaqi məsuliyyətsizlikdə suçlandırardım, faciə ondadır ki, bu "uşaqlar" vəzifəyə nail olmağa səy-lidirlər, hətta idarəetmə maşınının yuxarı pillələrində özlərini görürlər. Ölkəsinin müharibəyə cəlb olunması hər bir vətəndaşın davranışı - əxlaqı sosial - mənəvi sərvətlər və münasibətlər aləmində bələdliyin xüsusi üsulu kimi həssas alətə çevrilir, hər bir insan "arxa da bir cəbhədir" hökmü ilə öz həyat fəaliyyətini bu cəbhənin hərbə, asayişə xidmətinə yönəltsin. Mənəvi normalara əməl etmək, konkret vəziyyətdə yaxşı əməllərin tətbiqinə şüurlu münasibət əxlaqının ümumi şərti olsun, bir amacla: gözü sərvət yığımında, mənimsəmədə qalmasın. Tamahkarlığı və talançılığı özünə layiq bilənlər daha çox vəzifəyə can atır, min bir vasi-tələri axtarıb tapırlar, soxulcan qurdu torpağın altında dişisinin qoxusunu necə ki hiss edir. Qəribəsi ondadır bu kimi murdarların dilindən: "Mən özüm üçün yox, xalqım üçün yaşayıram" - qışqırır ucadan. Belə zatların sadəcə həya - abırı varsa etiraf eləsinlər ki, mənsəb, vəzifə dalısınca qaçmaq cəmiyyətə, öz dövlətinə xidmət göstərmək deyil, vəzifə səlahiyyətlərindən sui-istifadəyə cəhddir, şərəfsizlikdir.

### *Belə xislətlilər*

**günbəgün o dərəcədə artırlar, himayə olunurlar ki, "min insanın içində bir xeyirxah tapmaq" intizarı ilə qarşılaşırsan. Bu gün bu fikir təəccüb doğurmur da! Görəsən, belə tiplilər müdriklərin arasında özlərini kişi hesab etmək arzusunda olurlarmı? Sualı bilərəkdən yumşaq səsləndirdim, bələlərini vicdan yoluna gətirmək ümidini onların valideynlərinin məsuliyyətinə bağladım, onları, uşaqlarını ləyaqətə hörmət ruhunda böyütmək əzabına qatlaşmağa çağırdım. Görəsən, səsimi eşidərlərmi? Valideynin və müəllimin öyüd - nəsihəti havaya sovrulur-sa, əməldən uzaqlaşırsa yəqin tərbiyə üsulları düzgün seçilməmiş... Amma bu israrıma şübhəylə yanaşıram: deməli, talançı, dağıdıcı, xalqın, dövlətin sərvətini cibişdanına yığan nakəsin ya zatındadır, ya da onu "xalqın başında otuzduran" məmurun öz vəzifəsinə xəyanətindədir. Bu adamlarla ehtiyatlı olmaqla da unudulmamalıdır: beləsindən Vətən xaini əmələ gəlir...**


Seyfəddin Altaylı,
Ankara, altaylı_s@yahoo.com


# ƏCƏLİ GƏLƏN!..



***"Bütün dünya bilmeli ki, karşımızda böyle bir düşman oldukça onu affetmek elimizden gelmez ve gelmeyecektir. Düşmana merhamet acizlik və zaaftır; bu, insaniyyet göstərmək deyil, insanlık hassasının yok olduğunu ilan eylemektir".***

***Atatürk***

*Biz türklər millət olaraq tarix boyu hər bir mədəniyyətə və millətə hörmət etmişik. Heç bir milləti həqir görməmişik, heç bir millətin mədəniyyətinə, dilinə, dininə, namusuna toxunmamışıq, daim gücsüzü qorumuşuq, zalımın qarşısında qranitdən qalaya çevrilmişik, zalım zalımlığını davam etdirdiyində də dərsini vermişik. Bəşəriyyətə dövlət nədir, dövlətçilik nədir onu göstərmişik.*

*Bu gün milyonlarla türkü əsarəti altında saxlayan rus xalqına dövlətçiliyi öyrədən bizik. Dövlətçiliyin üç önəmli atributu - maliyyə, vergi və ordunu onlara öyrədən bizik. Sual olunar ki, bəs niyə bu günə düşmüşük?*

*Biz millət olaraq daim yeniliklərə açıq olan bir millətik, ancaq 15-ci yüzildən sonra elmə arxamızı dönmüşük, bu səbəblə də texnoloji ixtira edə bilməmişik. Avropalılar 16-cı yüzilin sonlarından başlayaraq ziyalanma çağına daxil olduqda biz eyş-işrətdə olmuşuq, ərəbin, farsın xurafatını İslam qəbul etmişik və İslamın elm dini olduğunu əsla yadımıza gətirməmişik. Avropalılar ziyalanma çağına daxil olduğu zaman İstanbulda Hazərfan Əhməd Çələbi bal mumundan düzəltdiyi qanadları geyinib Qalata qülləsindən özünü buraxmış və 3358 metr uçaraq İstanbul boğazını keçərək Üsküdarda yerə enmişdir. Osmanlı padşahı IV Murad onu izləmiş, çağırıb öydükdən sonra bir kisə qızıl vermiş, ancaq onun elmindən və cəsarətindən qorxuya düşüb sürgün etdirmişdir.*

*Bugünkü çağımızda başımıza bəla olan bir murdar xalq vardır. I Dünya Müharibəsi illərində ulu babalarımızın yüzillər boyu qoruyub-saxladığı, dilini, dinini və mədəniyyətini daim inkişaf etdirmək üçün geniş meydan buraxdığı ermənilər Doğu və Güney Doğu Anadoluda Osmanlı ordusu müxtəlif cəbhələrdə düşmənlərlə döyüşərkən bunu fürsət bilib kəndlərə, qəsəbələrə hücum çəkib dinc əhalini eynilə Xocalı Soyqırımında olduğu kimi qırmışdır. Sonraki dönəmlərdə də "Türklər bizi qırdı" deyib öz günahını türkün boynuna yıxmaq cəhdinə yönəlmişlər.*

*Ruslar ingilislərin planı ilə Osmanlı torpaqlarında, Livanda, Suriyada və İranda yaşayan erməniləri kütləvi şəkildə köçürərək Azərbaycan torpaqlarında məskunlaşdırmış və onlara daim arxa duraraq Azərbaycan türklərini dədə-baba torpaqlarından qırğınlarla çıxardaraq Ermənistan deyilən monoetnik bir dövlət yaratmış, rusların əliylə Dilicanı, Göyçəni, Zəngəzuru da qapmışdır. Bununla da kifayətlənməyən bu azğın xalq Azərbaycan torpaqlarına yenə rusların yardımı ilə 1990-cı illərdə hücum çəkmiş, tarixi Xocalı Soyqırımını da gerçəkləşdirərək 20 faiz torpaqlarımızı işğal etmişdir. Qondarma Minsk Qrupu yaradılmış, ancaq bu qrupun iki önəmli üzvü Rusiya və Fransa daim Ermənistanı dəstəkləmiş və BMT-nin verdiyi qərarlara baxmayaraq işğalını dünənə kimi davam etdirmişdir. Məsəl var "əcəli gələn it gedib məscidin divarına ..yər". Ermənilər yenə dinc durmamış və daim atəşkəs rejimini pozaraq Azərbaycana hücum çəkib terrorist bir dövlət və axmaq, ağılsız bir xalq olduğunu sübut etmişdir.*

*Ermənistanın bugünkü dəstəkçisi ABŞ və xüsusilə Fransadır, bunlar erməniləri öz əllərinə alaraq ruslardan qoparmaq istəyirlər. Fransanın başında dayanan Makron dəhşətli bir türk düşmənidir. Onun türk adından zəhləsi gedir, ancaq ulu babası Fransuva Alman imperatoru Şarlkən tərəfindən zindana atıldığı zaman Qanuni Sultan Süleymana məktub yazaraq özünü dustaqdan azad etməsini xahiş etmişdir. Tarixi dəyəri olduğuna görə Qanuni Sultan Süleymanın cavab məktubunu təqdim etmək istəyirəm:*

*"Mən ki, sultanlar sultanı, xaqanlar xaqanı, hökmdarlara tac geydirən Allahın yer üzündəki kölgəsi, Ağdənizin, Qaradənizin, Rumelinin, Anadolunun, Qaramanın, Rumun, Dulqadir Vilayətinin, Azərbaycanın, Əcəmin, Misirin, Məkkənin, Mədinənin, Qüdsün, bütün ərəb diyarının, Yəmənin və neçə məmləkətlərin, ulu babalarımızın qüdrətilə aldıqları və mənim dahi atəş püskürən zəfər qılıcımla fəth eylədiyim neçə diyarın sultanı və padişahı Sultan Bəyazid Xanın nəvəsi, Sultan Səlim Xanın oğlu, Sultan Süleyman xanam. Sən ki, Françə vilayətinin kralı Françeskosan. Sultanların sığınma yeri olan qapıma adamın Frankipan ilə məktub yollayıb, məmləkətinizin düşmən işğalına uğradığını, hələ də həbsdə olduğunu, xilasın haqqında məndən yardım və mədəd istəyibsən. Hər nə ki deyibsən, mənim ulu məqamıma ərz olunub, təfərrüatıyla öyrənmişəm. Padşahların məğlub olması və zindana salınması qəribə deyildir. Ürəyinizi xoş tutun, özünüzü incitməyin. Mənim ulu əcdadım, daim düşməni qovmaq və məmləkətlər tutmaq üçün heç vaxt səfərdən imtina etməmişdir. Mən dəxi onların yolundan yeriyib həmişə ölkələr və alınmaz qalalar tutmuşam, gecə-gündüz atım yəhərli və qılıncım belimdə olub. Allah xeyrə calasın və iradəsi nəsə o, gerçəkləşsin. Adamınızdan hər bir şeyi soruşub öyrənərsən".*

*Və Qanuni Almaniya imperatoruna məktub yazıb deyib ki, Fransuvanı zindandan buraxmasan ordumla üstünə yeriyəcəyəm. Bu xəbəri yollayandan sonra da səfər hazırlıqlarına başlayıb, imperator Şarkən onun ciddi olduğunu görüb Fransuvanı azadlığa buraxıb.*

*Bu gün Fransuvanın törəməsi özünübilməz Makron isə türk deyiləndə elə bil başına daş düşür. Çünki türk milləti onun müstəmləkəçilik siyasətinə mane olur. Erməniləri, axmaq Paşinyanı qışqırtması isə bir tərəfdən Rusiyaya gözdağı vermək, digər tərəfdən türk millətinə zərbə vurmaq və Azərbaycandan qəpik-quruş qoparmaqdır. Paşinyan da Qərbdən aldığı dəstəyin daim davam edəcəyini və Azərbaycana daha böyük zərbələr endirəcəyini zənn edirdi. Evdəki hesabı bazarda tutmadı və dəhşətli bir kötək yedi, yeməyə də davam etməlidir.*

*Türkiyə Suriya, İraq, Liviya və Şərqi Ağdənizdə ardıcıl olaraq irəli getdiyindən imperiya siyasəti yeridənlər qansoranlar narahat olmağa başladılar. Onların məqsədi Türkiyənin diqqətini Qafqaz bölgəsinə yönəltmək və dolayı yolla da müzakirələri öz xeyirlərinə həll etməkdir. Azərbaycanın irəliləyişini dayandırması və danışıqlara başlaması Azərbaycan üçün uduzmaq anlamındadır. Ermənistan Qafqaz bölgəsində sabitliyi pozan terrorist bir yığnaqdır və bu yığnaq darmadağın edilməlidir, vəssalam.*

*Hörmətli Prezidentimiz İlham Əliyev Cənabları, Sizdən indiyə kimi heç bir xahiş etməmişdim. Bilirəm ki, alicənab ürəyə maliksiniz. Mən qəhrəman ordumuzun dayanmadan Zəngəzuru da tutmasını xüsusilə Sizdən xahiş edirəm. Ankaradan maşınıma oturub, Naxçıvan-Meğri-Zəngilan yoluyla doğma vətənə gəlmək istəyirəm. Bu, yalnızca mənim deyil, 85 milyonluq Türkiyə türkünün arzusudur.*

*Ulu Tanrımdan Sizə və qəhrəman ordumuza zəfər çalmağı, hər ikinizin adının da möhtəşəm Türk tarixinə qızıl hərflərlə yazılmağını niyaz edirəm.*

*Dərin hörmətlə.*

# Böyük fikirlər eşqi ilə yazılan kitab

**Adaşım, pedaqoji elmlər doktoru, professor, neçə-neçə adlı mükafatlar laureatı, musiqişünas-estetik, fəhmli insan kimi həmkarları arasında sayılıb-seçilən Vidadi Xəlilovun müəllifliyi ilə araya-ərsəyə gələn bir çox ədəbi-pedaqoji məxəzlərlə yaxından tanışam.**

Onun bu yönümdən sevimli oxucuları ilə növbəti görüşü isə unudulmaz xanəndə, mətin insan, ustad tarzən, talantlı aktyor kimi tanınan, məşhur el sənətkarı Qulu Əsgərov haqqında olan "Dolanaram başına"nın heyrət aləmi adında təqdim etdiyi nəfis tərtibatda, aydın zəka işığında qələmə aldığı monoqrafiyadır.



### *Bir həqiqəti də etiraf edim ki,*

toplu halında, ayrı-ayrı rəyçilərin təəssüratları əsasında yazılmış bu kitab, müəllif tərəfindən ciddi təhlil-tərkib edilmiş, ustad xanəndənin həyat və yaradıcılıq yoluna elmi-mənəvi siqlətdən, kreativ düşüncə prizmasından şərh verilmişdir.

***Redaktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı, sənədlərin və fotoların tərtibçisi Aydan Əsgərova, kompüter tərtibatçısı Könül Mikayılova olan nəşrin həm illüstrativ materialları, həm də məzmun lakonikası məfkurə dəyərliliyi baxımından çox təqdirlidir. Bu yönümdən "Elm və təhsil" nəşriyyatının belə kitabları hasilə gətirməsini uğurlu sayıb, yalnız alqışlamaq olar.***

Onu da qeyd edək ki, müəllif bu mündəricədən olan kitabların yazılmasında peşəkarlıq səriştəsi olan mütəxəssislərdəndir. Onun bu xidmətlərini kitabın titul səhifəsində annotasiya şəklində ifadə edən rəyçilər çox haqlı olaraq göstərirlər ki, "Professor Vidadi Xəlilov", "Bəstəkar Süleyman Ələsgərov", "Bəstəkar Qəmbər Hüseynli", "Bəstəkar Oqtay Zülfüqarov", "Akademik Mehdi Mehdizadə ömrünün işığı", "Sadiqlik nümunəsi" (əməkdar incəsənət xadimi, professor Nazim Kazımova həsr edilib), "Şirin səsin sədası" (əməkdar artist Təhmiraz Şirinov haqqında), "Ustad məhəbbəti, ustad sənəti" (xalq artisti Səkinə İsmayılova haqqında), "Zirvə yolu" (əməkdar elm xadimi, akademik Misir Mərdanov haqqında) monoqrafiyalarının müəllifi kimi tanınır. Milli musiqi mədəniyyətimizin inkişafı naminə geniş fəaliyyət göstərmiş Qulu Əsgərovun həyat və yaradıcılıq istiqamətləri haqqında aydın təsəvvür yaradan bu monoqrafiya ilə müəllif yenidən oxucuların - elm, sənətsevərlərin görüşünə gəlib.

***Möhtəşəmlikdə, dəyanətdə, sadiqlikdə, elcanlılıqda, Vətənsevərlikdə tayı-bərabəri olmayan adaşımın böyük sənət yolunda ustad sənətkarlar haqqında bu yönümlü tədqiqatları elm və sənət sahəsində çox nəcib təşəbbüs sayılmalıdır.***

Bəstəçi-xanəndə Qulu Əsgərov haqqında məkanından asılı olmayaraq harada, nə zaman söz düşəndə, istər-istəməz estetik fəhmi, dəruni həyatsevərliyi, xəlqi ruhu ilə el-obasına, doğma Azərbaycanına bağlı olan, sənət kəhkəşanında parlayan ulduz kimi şövq saçan nurlu bir alicənab şəxsiyyət göz önündə dayanır. Onun qəlbləri ehtizaza gətirən muğam ifaçılığı manerası, qüdsi, əzəli poetik təfəkkür səltənətindən pərvəriş tapmışdır.

### *Səsindəki məlahət,*

həzinlik, incəlik, şaqraq keçidlər sanki ömür-gün yolunda ona bəxş olunmuş ilahi nemətlər idi. Oxuduğu muğam dəsgahlarının səlist ifası ilə insan duyğularına hakim kəsilən, bu hisslərə məlhəmlik şərbəti qatan ustad xanəndə təkcə ölkəmizdə deyil, həm də dünya arenasında, əsl püxtələşmiş məktəb yolu olan novator sənət fədaisi idi. Onun opera sənətkarlığı xüsusən milli və bəşəri siqlətə söykənən ecazkar sənət mücəssəməsi idi.

Bütün bu keyfiyyətlər dahi sənət xiridarının muğam ifaçılığına həsr olunmuş həyat dolaylarına yaxından bələd olmaqda hər bir kitabsevərin bu vəsaitlə tanış olacağına birmənalı olaraq heç bir şəkk-şübhə qoymur. Yəqin ki, hər bir şüurlu oxucu yüksək harmonik səpkidə qələmə alınmış "Dolanaram başına"nın heyrət aləmi"ni vərəqlərkən, bir daha Qulu Əsgərov sənətinin fütühatı haqqında aydın təsəvvür yaradacaq, ipə-sapa düzülən söz və sənət aləminin inci naxışları ilə öz mənəvi dünyasını bəzəyəcəkdir.

İnanırıq ki, digər qədirbilən oxucular da tezliklə bəhs etdiyimiz kitabın başqa məziyyətləri ilə tanış olub, öz fikir və mülahizələrini bildirəcəklər. Biz yalnız kitabın ümumi, küll halında olan məlum həqiqətlərini izhar etdik.

**Haşiyə:** kitabın araya-ərsəyə gəlməsində, heç şübhəsiz müəllif uğuru böyükdür. Çünki yaradıcı şəxsiyyət haqqında dolğun fikir, aydın məram o zaman qənaətbəxş hesab olunur ki, fakt və hadisələri gərgin axtarış, dərin zəhmət, bir də məsuliyyətli şəxsi əmək yolu ilə axtarışlar sorağına düşəsən.

Məhz, bu cəhətdən kitab aləmində təfsilati təhlil yolu tapmaq, aydın, lakonik və səlist deyim tərzi seçmək, oxucunu həqiqətə inandırmaq jesti ilə arxiv və muzey salnamələrinə müraciət etmək, bu yolda əsil vətəndaş fövqündə dayanıb, məsələlərə yaradıcı münasibət göstərmək hər bir yazarın müdriklik yolunda qazandığı uğurlu təcrübədən, peşəkarlıqdan xəbər verir. Professor Vidadi Xəlilovun bədii-estetik fikir tarixindəki müstəsna rolu da bu cəhətdən danılma zdır. Onun iti ağıla, dərin zəkaya, yüksək yaradıcı potensiala qadir yaradıcılıq yolu oxucu dünyası üçün həmişə parlaq naxış açır, mənəvi-estetik baxışlar sistemini həyatsevərlik nümunəsi üzərində kökləyir və bunun nəticəsi kimi dərin məzmun dəyərlərini ehtiva edən təbiət, cəmiyyət və incəsənət gözəlliklərini real gerçəkliklər səviyyəsində dərk etməkdə ona yardımçı olur...

**"Dolanaram başına"nın heyrət aləmini geniş oxucu kütləsi üçün aydın çıraq tutan bu kitabda min bir ehtişamla səslənən fikir və mülahizələrdə oxucu qəlbini riqqətə gətirən qiymətli məqamlar çoxdur. Sənət və sənətkarlıq naminə qələmə alınmış kitabın ideya siqləti, estetik qayəsi həm də onu deməyə imkan verir ki, "Sənət aləminə gələndən bəri", "Qəlb oxşayan mahnılarıyla...", "Qrammafon vallarının sədasıyla", "Konsert-ifaçılıq fəaliyyəti ilə", "Səməd Vurğun lirikasının estetik idealının təsiri ilə", habelə "Opera teatrının səhnəsində", eləcə də novator "Pedaqoji fəaliyyəti" ilə ustad sənətçi-pedaqoq zirvəsinə ucalan el nəğməkarı kimi əfsanəvi muğam bilicisi, xanəndə Qulu Əsgərovun ideya-mənəvi irsini qoruyub saxlamaqda bu kitabın böyük təsiri danılmazdır. Düşünürəm ki, qədirbilən oxucular bu kitabdan aldıqları bədii-estetik zövqü uzun müddət yaşadacaq, onu əbədiyaşarlıq nümunəsi kimi stolüstü kitablarına çevirəcəklər.**


**Vidadi Bəşirov,**
**Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru**


### *ABŞ bu ölkədəki səfirliyini bağlayır*



***İraq raket zərbələrini dayandırmasa, bu ölkədəki ABŞ səfirliyi bağlanacaq.***

***Bunu ABŞ Dövlət Departamentinin rəhbəri Mayk Pompeo deyib.***

***O, İraq Prezidenti Bəhram Saleh və Baş nazir Mustafa əl-Kazımi ilə telefon danışığında məsələni gündəmə gətirib.***

***Bundan başqa, İraqdan iki rəsmi mənbə də ABŞ-ın növbəti aylar ərzində Bağdaddakı səfirliyi bağlamağa dair indidən addımlar atıldığını, bunun ABŞ əsgərlərinin İraqdan geri çəkilməsi ilə eyni anda baş tuta biləcəyini bildirib.***

### *Türkiyədə daha 68 nəfər virusun qurbanı oldu*



***Türkiyədə son sutka ərzində 1 427 yeni yoluxma faktı qeydə alınıb. Bu barədə ölkənin səhiyyə naziri Fahrettin Koca məlumat yayıb. Nazirin sözlərinə görə, Türkiyədə bu gün 68 nəfər koronavirusdan dünyasını dəyişib. Bununla da ölkədə koronavirus qurbanlarının sayı 8 130, yoluxanlar isə 317 min 272 nəfərə çatıb. Türkiyədə indiyədək 278 min 504 xəstə sağalaraq evə buraxılıb.***

***MEHRİBAN***

Layihənin istiqaməti: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

№ 110 (2144) 1 oktyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# DÜNYA ERMƏNİLƏRİN İÇ ÜZÜNÜ BİR DAHA GÖRDÜ

**Bu gün dünyanın ən qlobal problemlərindən biri təbii ki, COVİD-19-dur. Təbii ki, bu, bütün dünyanın problemi olmaqla bahəm, həm də Azərbaycanın özünün də artıq 1988-ci ilin fevralından başlamış Qarabağ problemi var. Özü də bu problem zaman-zaman beynəlxalq güclərin laqeydliyi və bəlkə də müəyyən göz yummaları hesabına Qarabağ problemi artıq beynəlxalq müstəviyə çıxıb.**

Bununla bağlı BMT-nin məlum 4 qətnaməsi də qəbul olunub. Üstəlik, bu problem ən yüksək səviyyələrdə, ən böyük auditoriyalarda, arenalarda müzakirə edilibdi.

Çox təəssüf ki, nə BMT-nin bəlli 4 qətnaməsinin, nə də beynəlxalq müzakirələrin çözümündə heç bir faydası olmayıb. İşğalçı dövlət, yəni Ermənistan bütün məlum qətnamələri, müzakirələri saymazyana şəkildə rədd edib və öz işğalçı siyasətini bu gün də davam etdirməkdədi.

Özü də bu həyasızlığı o, problemi çözmək missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupunun gözləri önündə edirlər.

Minsk qrupu da öz növbəsində susqunluq, görməməzlik nümayiş etdirməkdədir.

Ən yaxşı halda regiona onların mənasız, əslində özlərinin varlıqlarını göstərmək xarakterli səfərləri və sonda da həmişəki şəkildə, həmişəki məzmunda bəyanatları ilə gündəmdə olurlar, özü də qısa müddətli.

Söylədiyim bu məqama özünün son çıxışlarında birmənalı şəkildə toxunan Azərbaycan prezidenti cənab İlham Əliyev vurğulamışdı ki, **"Bütün bunlar göstərir ki, Ermənistan tərəfi birmənalı şəkildə danışıqlar prosesini süni qaydada davam etdirmək və öz istəklərinə çatmaq yolunu tutublar. Amma biz danışıqlar xatirinə danışıqlar aparmağın əleyhinəyik. Və bir daha bildiririk ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik".**

Ölkə başçısı özünün Azərbaycan xalqına olan güvənini, inamını və xalqın da öz prezidentinə olan etimad və etibarını dilə gətirərək onu da bildirmişdi ki, **"Özümüz özümüzü aldatmamalıyıq, xalqımızı aldatmamalıyıq. Xalqımız bilməlidir ki, bu gün Ermənistanla danışıqlar getmir. Çünki Ermənistan iqtidarının siyasi cəhətdən qüsurlu və ziyanlı bəyanatları danışıqlar üçün yer qoymur".**

Bax, əsl həqiqət budur. Və bu həqiqəti də Azərbaycan prezidenti cənab İlham Əliyev bütün dünya ictimaiyyətinə açıq şəkildə bəyan edibdi.

Xalqımız, o cümlədən də bu ölkənin sıravi vətəndaşlarından biri kimi mən də bu gerçəkliyə görə, öz Prezidentimə, Ali Baş Komandanıma minnətdaram. Zaman-zaman prosesləri izləmiş, bəzən də şahidinə çevrilmiş vətəndaş olaraq görmüşəm ki, işğalçı Ermənistan bütün vasitələrlə öz yalanını gizlətməyə, öz işğalını pərdələməyə çalışıbdır.

Hələ 1988-ci ilin fevral ayından başlayaraq, Ermənistan və hadisələrin ilhamvericisi olan Moskva sülh danışıqlarını əldə bayraq etməyə, əsl həqiqətdə isə bu danışıqlarda işğal üçün bir vasitə kimi yararlanmağa çalışmışdı. **"Sovet dönəmində Kremlin, xüsusilə SSRİ- prezidenti Qorbaçovun atdığı addımlar Qarabağda yaratdığı xüsusi idarə ermənilərə əl-qol açmaq üçün yaradılmış şərait idi. Bu cür yanaşmaların nəticəsində də Ermənistan silahlanmağa və daha böyük iddialarla çıxış etməyə başladı. Ona görə də Azərbaycan Prezidentinin çıxışında birmənalı şəkildə**



**göstərilir ki, Ermənistan təcavüzkar dövlətdir, üstəlik də Ermənistan terrorizmə sponsorluq edən ölkədir".**

Bu gerçəyi hər kəsə birmənalı şəkildə çatdıran Azərbaycan prezidenti bəlli reallığı şərh edərkən ölkəmizin mövqeyini də diqqətə təqdim edib və həm beynəlxalq aləmə, həm də birmənalı şəkildə ATƏT-in Minsk qrupuna mesaj verib. Bu mesajda cənab İlham Əliyev bildirib ki, **"Bizə qarşı ciddi təxribat törədilərsə, onda bizim üçün heç bir məhdudiyyət olmayacaq. Artıq Ermənistan ərazisinə keçmək üçün bizə heç bir hərbi maneə yoxdur".** Ali Baş Komandanın bu kəskin mesajı bir daha göstərir ki, Azərbaycan xalqı öz prezidentinin yanındadır və Ali Baş Komandan "danışıqlar xatirinə danışıqlar"dan imtina etməyin vaxtı çatdığını, əvəzində isə onun özünün də dediyi kimi, **"Ermənistan beynəlxalq hüququ yerə vurursa, Azərbaycan da beynəlxalq hüququ gözləməyəcək"** məqamının yetişdiyini dünyaya bildirmişdir. Görünür, bu sərt açıqlamalar, məsələyə kəskin münasibətlər artıq həm Ermənistanın, həm də ona havadarlıq edənlərin kürkünə birə salıb.

Mətbuatdan məlum olduğu kimi, son günlərdə Ermənistan tərəfi danışıqları bərpa etməyə hazır olduğunu açıqlayıb. Moskvada Azərbaycan Parlamentinin sədri ilə görüşən Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirmişdi ki, **"Rusiya Azərbaycanın işğal olunmuş 5 rayonunun qaytarılmasına tərəfdardır".** Bu da o deməkdir ki, həm işğalçını, həm də onun güvəndiyi gövlətləri Azərbaycan ordusunun gücü artıq narahat edir. Ordumuzun gücünə həm Füzuli istiqamətində, yəni 2016-cı ilin aprelində, həm də bu ilin Tovuz istiqamətində olan döyüşündə bələd olan düşmən vəziyyətin ciddiliyinə yəqin ki, inanmağa başlayıb. Üstəlik, Ali Baş Komandanın bu mesajı da öz təsirini göstəribdi. Yəni cənab İlham Əliyev vurğulayıb ki, **"Əgər ermənilər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün çox ağır nəticələr olacaq".**

Tarixi prosesləri diqqət mərkəzində saxlayan hər kəs onu da yaxşı bilir ki, bu gün torpaqlarımızı işğal etmiş düşmən xarici güclərin həm silah-sursatından, həm də onların muzdlu döyüşçülərindən yararlanır.

Heç kimə sirr deyil ki, Ermənistana daha çox Rusiya silah və sursatla yardım edir.

Hələ ötən illərdən Rusiyanın bir milyon dollarlıq dəyəri olan silah-sursatı Ermənistana bağışlaması geniş dairələrdə müzakirə olunmuşdu.

Təəssüf ki, problemin çözümündə həmsədr olan Rusiyanın mövqeyi Azərbaycan tərəfindən kəskin etirazlarla qarşılanmışdı.

Həmin vaxt məsələni müxtəlif siyasi yozumlarla daldalayan Rusiya son vaxtlar yenə Ermənistanı silahlandırmaq üçün addımlar atıb.

Özü də təkcə Rusiya yox, eləcə də Serbiya Ermənistana silah-sursat satmaq və göndərməklə məşğul olmuşdu.

Bu məsləyə də münasibət bildirən Azərbaycan Prezidenti yerli mediaya müsahibəsində vurğulamışdı ki, **"Serbiya və Rusiya prezidentləri ilə mənim telefon söhbətlərim oldu və mən narahatlığımı ifadə etdim".**

Həqiqətən də özünü sülhpərvər, Qafqaza sülh arzulayan dövlət kimi göstərən Rusiyanın erməniləri silahlandırması adamın yaddaşında hələ 1905-ci ildən qalan bir faktı təzələyir. Xatırlayırsınızsa, böyük dramaturqumuz Cəfər Cabbarlının "1905-ci ildə" dramında bir səhnə var.

Həmin səhnədə deyilir ki, "atam kazaklardı". Bu bir həqiqətdir ki, bu gün işğal olunmuş torpaqlarımızda istifadə olunan silah və sursatlar daha çox Rusiyanın istehsalıdır və ermənilərin güvəndiyi də daha çox həmin dövlətdir. Nəhayət, bu da bir gerçəkdir ki, **"Ermənistan siyasətinin əsas qayəsi özlərini alçaltmaqdır, özlərindən məzlum, yazıq xalq imici düzəltməkdir, ağlaşmaqdır və ondan-bundan nə isə imtiyaz, ianə, qrant, kömək qoparmaqdır".** Bu fikirlərin də müəllifi prezidentimiz cənab İlham Əliyevdir.

Deməli, onun dünyaya bəyan etdiyi bu gerçəklik bir daha göstərir ki, artıq ermənilərin kimliyi ortadadır. Və onlar Azərbaycan əsgərinin gücünü görməyə məhkumdurlar.

Şükürlər olsun ki, bu gün o gücü görürlər. Bayrağımız Şuşaya doğru aparılır!!!

***Əbülfət MƏDƏTOĞLU***
***Əməkdar jurnalist***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

*Balayar SADİQ,*
*şair-publisist*

# HƏYAT HƏQİQƏTLƏRİNİN ORİJİNAL POETİK AYNASI

## (İstedadlı şair Fəxrəddin Teyyubun yaradıcılığı haqqında qeydlər)

**Ənənəvi poeziya müstəvisində həyat həqiqətlərinə, ədəbi-bədii mətləblərə özünəməxsus orijinallıqla, yüksək fikir tutumu və poetik təravətlə yanaşan istedadlı şairlərdən biri Fəxrəddin Teyyubdur. Onun yaradıcılığı ideya-mənəvi axtarışların siqləti, obrazlı düşüncə zənginliyi ilə yanaşı, həm də milli-mənəvi və etik bütövlüyün poetik məxsusiliyini özündə ehtiva edir. Fəxrəddin Teyyubun bədii nümunələrində mövzu və forma dolğunluğu, emosional ifadə tərzi, poetik vasitələrin rəngarəngliyi, onun sənətkarlıq bacarığının mühüm elementləri kimi təzahür edir. O, səciyyəvi poetik nəfəsə, məxsusi intonasiyaya və seçilən dəst-xəttə malik istedadlı qələm sahibidir. Ərsəyə gətirdiyi poetik əsərlər öz istinad obyektinə, düşüncə miqyasına və bədii qaynaqlarına görə milli lirikamızın maraqlı nümunələri sırasındadır. Şair mövzunun poetik həllində lirik ovqatın səmimiyyətinə, təsvir və ifadə vasitələrinin orijinallığına, hadisələrin dramatizmindən doğan gərginliyə və bədii ümumiləşdirmənin fəlsəfi mahiyyətinə böyük önəm verir.**

Sənət müstəvisində ədəbi-bədii nümunənin mahiyyətindəki ictimai-fəlsəfi fikrin dolğunluğu, poetik özünüifadənin, özünütəsdiqin yetkinliyinə dəlalət edir. Çağdaş poeziyamızda öz səmimi ahəngdarlığı, bədii-ictimai mündəricəsi, forma və məzmun tamlığı, həmçinin poetik ümumiləşdirməsi ilə diqqət çəkən sənət nümunələri sırasında Fəxrəddin Teyyubun "Mən göyün üzündə olaydım gərək" şeirini səciyyələndirmək olar.

Maraqlıdır ki, bu şeirin məzmununa yüksək poetik pafos hakim olsa da, onun ilk misrası kövrək, həzin və dərin fəlsəfi poetikaya xas olan dil estetikasını sərgiləyir.

"Bal dadır anamı gördüyüm yuxu" - bu misra şairin poetik nəfəsinin təravətini təqdim etməklə bərabər, həm də onun poetik ruhunun milli bədii düşüncəmizin ən dərin qaynaqlarından səmərəli bəhrələnməsinin göstəricisidir. Bu şeirin orijinallığı ondadır ki, burada poetik düşüncə çoxqatlı fəlsəfi kod altındadır. İlk baxışda pafoslu səslənən misraların poetik məğzinə varanda, şeirdəki bədii ümumiləşdirmənin fəlsəfi dərinliyi heyranlıq doğurur. Cəmiyyətin ictimai həyatdakı problemlərə mənəvi-əxlaqi aspektdən yanaşaraq, fərdin simasında cəmiyyətin, insanlığın ağrılarını bədii-fəlsəfi məzmunda ehtiva etmək həqiqi istedadın mahiyyətidir.

*Demirəm qazancın cəmi mənimdir,*
*Əlimə keçəni bölüb gedirəm.*
*Elə bil kədəri, qəmi mənimdir,*
*Şəhid atasıyla ölüb gedirəm.*

və ya:

*Tanrının qəlbini oxumaq üçün,*
*Bilir hansı dağa yağdırır qarı.*
*Kisəsi boş qalar bir məmləkətin,*
*Olsa mənim kimi xəzinədarı.*

Fəxrəddin Teyyubun yaradıcılığında çox vaxt yığcamlıq, lakonizm əsas ideyanın, ədəbi qayənin açılmasında bədii vasitə kimi çıxış edir. Onun bir çox şeirlərində bədii dil orijinal və gözlənilməz fikir tutumu, yeni ovqatı, təzə rəng çalarları, həmçinin emosionallığı və obrazlılığı ilə yadda qalır.

*Tutun yarpağından öpüb gedirəm,*
*Yaşıl xatirədir ömrün hər günü.*
*Səhər gözlərimə təpib gedirəm,*
*Titrəyən yarpağın təbəssümünü.*

Fəxrəddin Teyyub aşağıdakı misralarda koronovirus dövrünün ən poetik səciyyəsini özünəməxsus və sənətkar kimi təqdim edir və bu təqdimatda obrazlı şair düşüncəsi çox maraqlıdır.

*Sükut içindədir qəmli gecələr,*
*Nə olsun işıqdan hər tərəf ağdı.*
*Adama tamarzı, həsrət küçələr,*
*Elə bil anası ölmüş uşaqdı.*

*Pozulub min sevgi müqaviləsi,*
*Adamsız solubdur bağçalar, bağlar.*
*Gözləyir yolunu hər sevən kəsin,*
*Məhəbbət qoxulu oturacaqlar.*

İstedadli şairin "Pəncərəmdən baxıram" adlandırdığı bu şeir öz bədii-fəlsəfi və çağdaş ruhu ilə dəyərli sənət indeksidir. Şair bu pəncərədən həm səhərə baxır, həm də dünyaya... Çünki "Dünya bir pəncərədir, hər gələn baxar gedər". Hansı kontekstden yanaşsan, bu şeirin poetik enerjisi öz mükəmməlliyini qoruyur. Çağdaşlıq və yüksək poetik-fəlsəfi mündərəcə bu şeirin alın yazısıdır.

***Bu misralar onun istedadının, səmimi şair ruhunun poetik özünütəsdiqi olmaqla yanaşı, həm də ümumən poeziyamıza yeni çalar, yeni təravət qatır. Bu misralar istedadlı şairin sənət uğuru kimi dəyərləndirilməyə layiqdir.***

"Alver" adlanan şeirdə bir sıra sözlərin daşıdığı mənalar antiteza mahiyyətinə uygun qarşılaşdırılaraq, assosiasiya vasitəsi kimi bədü-fəlsəfi fikrin əyaniləşməsinə, həm də orijinal metaforanın yaranmasına vəsilə olmuşdur.

*Hərənin bir yerdən çıxır çörəyi,*
*Ümidim arzuyla yola gedərmi?*
*Neynirəm sinəmdə köhnə ürəyi,*
*Hərraca çıxarsam pula gedərmi?*

Şeirin məzmununu dolğunlaşdıran bu bədii suallar, bədii ifadə vasitəsi kimi yerində işlənmiş və sənətkar yetkinliyinin ehtivasıdır.

Qeyd etmək lazımdır ki, Fəxrəddin Teyyubin şeirlərində mövzu rəngarəngliyi, müşahidə dərinliyi, bədii axtarış meyilləri və vətəndaşlıq keyfiyyətləri diqqətdən yayınmır. Bu baxımdan şairin "Ədəbiyyat qəzeti"nin 19 sentyabr 2020-ci il tarixli sayında çap olunan şeirlərində canlı müşahidə dəqiqliyi, mövzuların bədii həllində poetik elementlərdən zövqlə istifadə etmək bacarığı və poetik təfəkkürün obrazlılığı uğurlu səciyyə daşıyır. Şairin poetik nümunələrində epitetlər, təşbehlər, metaforalar, həmçinin obraz zənginliyi qarşılaşdırılan məfhumların məna və məzmun genişliyində ehtiva olunur. Sadalanan bu bədii komponentlər



şairin təlqin etmək istədiyi ideyanın, düşüncənin yüksək poetik ifadəsinə xidmət edir. Bu şeirlərin daşıdığı poetik enerji, bədii təravət, vətəndaşlıq qayəsi, forma və məzmun harmoniyası ədəbiyyatımızda özünəməxsus yeri və məqamı olan istedadlı bir şairin varlığını bir daha təsdiq edir. Şair poeziyanın ədəbiyyatdakı funksiyasını dərindən dərk etməklə bərabər, həm də sənətin ideya istiqamətini, vətənpərvərlik məramını düzgün müəyyənləşdirir. Fəxrəddinin bütün şeirləri öz həyatiliyi, səmimi və orijinal poetikası ilə seçilir. Dərin müşahidə qabiliyyəti, zəngin təfəkkürü, bədii sözün təravətini duymaq bacarığı onun fərdi şair obrazının əsas atributudur. Müasirlik onun şeirlərinin lokomatividir. O, həyatdakı reallıqların bədii mənzərəsinin rəsmini öz poetik rəngkarlığı ilə sözün yaddaşında canlandırır. Onun "Bu mən deyiləm" şeirindəki səciyyəvi məqamlara diqqət edək.

*Mətləbi qanıram başıma görə,*
*Necə də dünyanı qarışdırdılar.*
*Cəzamı almışam yaşıma görə,*
*Məni taleyimlə barışdırdılar.*

*Göylər ki, səxavət cuvalı deyil,*
*Payına nə düşüb kimin bəsidi.*
*Sinif otağıdı dünya elə bil,*
*Hamının keçdiyi Tanrı dərsidi.*

Şair niyə dünyanı sinif otağına bənzədir? Çünki "Tanrı dərsi"ni hamı keçməlidir, hamı ilahi varlığın qüdrətinə şəhadət gətirməlidir, bu sadəcə öyrənmək deyil, həm də fəhm etməkdir. Çünki bu bir irfani mətləbdir və sair bu mətləbi modern üslubda bədii-fəlsəfi müstəvidə ehtiva edir. Böyük Füzuli demişkən: "Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz" - bu mənada, dəyərli şair Fəxrəddin Teyyubun poetik düşüncələri Füzuli irfanından su içib desəm, yanılmaram.

Fəxrəddin Teyyubun şeirlərində poetik təravətlə yanaşı, həm də yaşından, həyat təcrübəsindən doğan bir müdriklik, könül oxşayan məna zənginliyi də diqqət çəkir. İstisnasız demək olar ki, onun bütün şeirlərində həyat həqiqətinin bədii həqiqət müstəvisində sənətkarlıqla canlandırılmasının şahidi oluruq. Zaman və insan amilinin poetik mənzərəsi "Məzuniyyət" şeirində səmimi poetik detallarla və ahəngdar intonasiya ilə təqdim olunur. Bu şeiri həm də həyat məktəbindən poetik fraqmentlər kimi də səciyyələndirmək olar. Bu şeirdən tənhalıq qoxusu gəlir və misralar unudulmağın bədii mənzərəsidir.

*Zəng edib kimisə dəng eləmirəm,*
*Gileyli misrayla doludu masam.*
*Daha doğmalara zəng eləmirəm,*
*Məni axtaran kim, mən axtarmasam.*

*Gərəkli günlərim qaldı arxada,*
*Sevinci sevincə qatardı hamı.*
*Olsaydı bir medal, orden yaxada,*
*Mənim kandarımda yatardı hamı.*

*Dostun dar günündə qəmə batmışam,*
*Vermişəm ömrümü xoş ünsiyyətə.*
*Özüm öz əmrimə imza atmışam,*
*Çıxmışam özümdən məzuniyyətə.*

Bu şeirin bədii ümumiləşdirməsi çox orijinal poetik tapıntı kimi yadda qalır.

İctimai mündəricəli bu şeirin bədii ümumiləşdirilməsinin poetikasındakı pafos, publisıstik çalar şairin aşılamaq istədiyi ideya-məzmunun tamlığına, vətəndaşlıq qayəsinin dolğunluğuna xidmət edir. Bu misralar milli özünüdərkə, mənəvi təkamülə çağırışın poetik əks-sədası olmaqla yanaşı, həm ədəbi, həm də ictimai-fəlsəfi əhəmiyyətə malikdir.

***İnamla demək olar ki, Fəxrəddin Teyyubun poeziyası vətəndaş qayəli, vətəndaş silqətli poeziyadır. Bu poeziya özündə böyük ictimai təbəddülatları, lirik qəhrəmanın mənəvi dünyası ilə onu əhatə edən dünyanın problemləri arasındakı uyğunsuzluğun inikası olan konfliktləri əhatə edir.***

Onun əsərlərinin lirik qəhrəmanı tənasübü pozulmuş dünyanın ağrı-acıları ilə yaşayır və həqiqi vətəndaş kimi buna etiraz edir, narahatlığını poetik sözün ictimai pafosu ilə bəyanə gətirir. Məhz bu xüsusiyyətləri, həm də vətənpərvərlik və ideya-estetik amillərin geniş inikası, onun poeziyasına yüksək bədii vüsət, ictimai dəyər, fəlsəfi mahiyyət aşılayır.

Poetik məzmun öz bədii ifadəsinə, estetik gözəlliyinə, məhz uyğun bədii formada nail olur. Məzmun həyəcanı ilə ritm, intonasiya həyəcanının harmoniyası və orijinal düşüncənin səmimi poetikası dəyərli sənət nümunəsinin önəmli məziyyətlərindəndir. Çağdaş poeziyamızı zənginləşdirən bədii sənət faktorları arasında Fəxrəddin Teyyubun digər poetik nümunələri kimi, bu şeiri də heyranlıq doğuran orijinal poetikaya malikdir. Milli poetik düşüncənin bədii təravəti bu şeirin ("Dedim qəm eləmə") hər misrasına hopub.

*Meh nədi, əsəndə əs külək kimi,*
*Qoşul göydən yağan yağışa ağla.*
*Durna qatarından düş lələk kimi,*
*Duyğular payıza qarışa, ağla.*

*Hardadı ünvanı görən sükutun,*
*Hər yanan ulduzdan hikmət, sirr soruş.*
*Yapış yaxasından göydə buludun,*
*Niyə kölgə salır Aya, bir soruş.*

Və yaxud, başqa şeirin bu misraları:

*Bağımda gəzəndə darıxmıram mən,*
*Ağaclar dostumdu, var həmsöhbətim.*
*Hər biri oxuyur məni gözümdən,*
*Heyva dayan deyir, nar həmsöhbətim.*

Bu şeirlər "təpədən-dırnağa" sənətkarlıq məziyyətlərinin bütövlüyü, obrazların, poetik detalların zənginliyi, milli koloritin təbiiliyi ilə məxsusi sənət keyfiyyətləri sərgiləyir. Fəxrəddin Teyyubun rəvan və təbii üslubu, şeirlərinin vəzn, bölgü, qafiyə və poetik strukturun digər elementlərindən məharətlə istifadə etmək bacarığı onun yaradıcılıq yetkinliyini şərtləndirən keyfiyyət kimi önəmli səciyyə daşıyır. Poetik yükündən bədii mahiyyətindən asılı olmayaraq, Fəxrəddinin bütün şeirlərindən vətəndaşlıq sevgisi boylanır, səmimiyyət ətri gəlir, nəciblik, məhəbbət, halallıq qoxusu duyulur. Bu şeirlərdə insanın insanlar qarşısında, bəşəriyyət qarşısında insanlıq borcunun və ləyaqətinin vicdanla, ədalətlə, namusla icrası məsələsinə böyük diqqət verilir. Bu xüsusiyyətlər onun şeirlərinə ictimai dərinlik, geniş vüsət və məzmun bütövlüyü gətirir. Şairin bir çox şeirlərinin ifadə tərzindəki məxsusilik, fikrin misra-misra incələnməsindən yaranan dolğunluq, incə lirizm, sakit və təmkinli ahəng, bədii-ictimai düşüncələrin doğurduğu poetik sanbal onun yaradıcılıq fərdiyyətinin keyfiyyət göstəricisidir.

Lirik əsərlərdə yenilik ruhu o vaxt diqqət kəsb edir ki, orada həyati müşahidə bədii materialın, poetik obyektin yeni cizgilərinə, görünməmiş tərəflərinə nüfuz etmiş olur. Fəxrəddinin şeirlərində ictimai, mənəvi, əxlaqi tamlıq və təbiətindən doğan halallıq mövzusu geniş yer tutur və onun dünyagörüşünün, bədii-estetik idealının müəyyənləşməsində, formalaşmasında əhəmiyyətli rol oynayır. Bu poeziyanın ən səciyyəvi xüsusiyyətlərindən biri onun müasirliyidir, yəni şair müasir həyatımızın təzadlarını, onun insanlara səadət bəxş edən məqamlarını və eyni zamanda, insanları əzab məngənəsində sıxan anları poetik məzmunda ehtiva edərək, onu yeni-yeni məna çalarları ilə zənginləşdirir.

Fəxrəddin Teyyubun şeirlərində milli kolorit qüvvətli olduğu üçün böyük maraq doğurur. Bu cəhət şeirlərin mövzusunda, mütəmadi müraciət olunan qoşma janrının ahəng və ritmində, bədii təsvir vasitələrində nəzərə çarpır. Məlumdur ki, poeziyamızda qoşma janrı həmişə öz xəlqiliyini və müasirliyini qoruya bilmişdir. Qoşmada şirinlik, axıcılıq, səmimiyyət və sadəlik vardır. Qoşma lakonikdir, yığcamdır, şairi sözə məsuliyyətlə yanaşmağa, sözə qənaət etməyə məcbur edir. İstedadlı şair qələmində qoşma mənalı, ahəngdar musiqiyə, gözəl nəğməyə çevrilir. Fəxrəddin Teyyubun yaradıcılığında belə poetik nümunələr çoxdur. İstedadlı şairin "Sükut" qoşması öz bədii təravəti, poetik sanbalı ilə fikrimizi təsdiq edir. Bu poetik nümunədə sükutun səsi eşidilir, rəngi duyulur, bunu yalnız orijinal şair qələmi yarada bilər, necə ki, yaradıb.

*Yola salıb necə cığır, iz məni,*
*Təbim qaynar, demə çəkib söz məni.*
*Axtarmayın, aramayın siz məni,*
*İstəyirəm bir mən olum, bir sükut.*

*Çox almışam salam kimi dərdimi,*
*Ucaltmışam qalam kimi dərdimi.*
*Qarşıladım balam kimi dərdimi,*
*İstəyirəm bir mən olum, bir sükut.*

*Ömrün, günün hesabı var sükutda,*
*Neçə vicdan əzabı var sükutda.*
*Hər sualın cavabı var sükutda,*
*İstəyirəm bir mən olum, bir sükut.*

*Bəd söz deməz, desə dilim qurusun,*
*Öz evini Tanrı özü qorusun.*
*Üzü dönsün bu koronavirusun,*
*İstəyirəm bir mən olum, bir sükut.*

*Səhvim varsa, desin mənə üç adam,*
*Doğmasından inciyərmi heç adam?*
*Mən yol kəsən deyiləm ki, keç, adam,*
*İstəyirəm bir mən olum, bir sükut.*

*Kimdi səni salan yada, yetmişim,*
*Qismətə bax, düşdü oda yetmişim.*
*Axır gəlib çatdı, bu da yetmişim,*
*İstəyirəm bir mən olum, bir sükut.*

Şair klassik qoşmanın ən yaxşı xüsusiyyətlərindən, məzmun vəhdətindən, obrazlılıqdan məntiqi ardıcıllıqdan, dil və ifadə oynaqlığından məharətlə istifadə edərək, gözəl nümunələr yaratmışdır. Fəxrəddin Teyyub dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən ustalıqla bəhrələnərək, mövzunun bədii həllini, poetik ümumiləşdirməni məxsusi ovqatda təqdim edə bilir. Şair bəzən bir bənddə lakonik poetik detallarla oxucu xəyalında orijinal lövhələr canlandıra bilir.

Onun bir sıra şeirlərində mürəkkəb psixoloji vəziyyətlər, anlar və duyğular, hisslər aləmi çox zərif və dəqiq ifadəsini, bədii həllini tapmışdır. O, bədii dilin estetik gözəlliyinə, emosionallığına məsuliyyətlə yanaşaraq, məzmuna uyğun forma rəngarəngliyindən səriştəylə istifadə etməyi bacarır. Fəxrəddinin yaradıcılığında mənəvi-əxlaqi zənginliyin harmoniyası vardır. Bu mənada o, daim inkişaf edən həm forma və məzmun əlvanlığı, həm də poetika baxımından kamilləşən bir sənətkardır.

**İstedadlı şair dostum ömrünün və sənətinin dolğun çağlarını yaşayır. Mənalı ömrünün 70-ci mərtəbəsində dəyərli sənətkara can sağlığı və daha zəngin yaradıcılıq nailiyyətləri arzulayıram!**

# Ahıllara qayğı nəsillərarası dialoq müstəvisində



*Ruhiyyə Məmmədova, “Ahıllara və Tənhalara Dəstək” İctimai Birliyinin sədri*

*”Yaşlı nəsil milli-mənəvi dəyərlərimizin qızıl fondudur”.*

*Ümummilli lider Heydər Əliyev*

**Yaşlı nəslin nümayəndələrinə hörmət və ehtiram xalqımızın milli-mənəvi dəyərlərinin əsas göstəricisidir. Zəngin həyat təcrübəsi ilə gələcək nəsillərə örnək olan ahıllara diqqət və qaygı nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini möhkəmləndirmək kimi mühüm amala xidmət edir. Olkəmizdə dövlətimizin hərtərəfli qaygısı ilə əhatə olunan ahıl insanlara qayğı ildən-ilə artır. Onlara müxtəlif növ xidmətlərin göstərilməsi, maddi-maişət şəraitinin yaxşılaşdırılması, cəmiyyətə hərtərəfli inteqrasiyası daim dövlətin diqqət mərkəzindədir.**

Xalqımızın ümummilli lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük həssasllqla yanaşmışdır və bu cür münasibətin nəticəsi olaraq, 22 iyun 2001-ci ii tarixində ”Ahıllara sosial xidmət haqqında” Qanun qəbul olunmuşdur. Həmin Qanuna əsasən, ölkədə 70 yaşına çatan Azərbaycan vətəndaşları, habelə, ölkamizdə daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunmuş, onlara sosial xidmətlə bağlı məsələlərin həlli üçün hüquqi-normativ baza yaradılmışdır. Ümumiyyətlə ahılların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması, onların maddi və mənəvi tələbatlarının ödənilməsi Ulu öndərin sosial siyasət kursunun mühüm tərkib hissəsi olmuşdur.

### *Milli və bəşəri dəyərlərə söykənən bu siyasət*

***Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirilir. Ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması ölkə Prezidentinin daim diqqət mərkəzindədir. Pensiya və müavinatların məbləğinin mütamadi olaraq artırılması, ahılların sosial rufahının yaxşılaşdırılmasına hüquqi imkanlar yaradan qanunların qəbul edilməsi yaşlı nəslə göstərilən davamlı dövlət qayğısının ifadəsidir.***

2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ”Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı” təsdiq edilmiş və bu Proqram əsasında yaşlı insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilmişdir. Həmin islahatlar ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan vermişdir. Dövlət qarşısında xüsusi xidmətləri olmuş ahılların bir qismi bu gün əmək pensiyaları ilə yanaşı, Azərbaycan Prezidentinin təqaüdü ilə də təmin olunurlar. Onların dövlət hesabına bərpa-müalicə xidməti, reabilitasiya avadanlıqları, sanatoriya-kurort yollayışları ilə təminatı sahəsində ciddi tədbirlər həyata keçirilir.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ahıllara xüsusi diqqət və qayğısı da böyük rəğbətlə qarşılanır. Xeyirxahlığı ilə hər bir kəsə örnək olan hörmətli Birinci xanımın təşəbbüsü ilə Fondda ahıllarla, müharibə və əmək veteranları ilə mütəmadi görüşlər keçirilir, onlar üçün müxtəlif tədbirlər, bayram şənlikləri təşkil olunur, yaşlı insanların sağlamlığı diqqətdə saxlanılır, onlar Fondun dəstəyi ilə səhiyyə ocaqlarında müayinə edilirlər. Bütün görülən işlər, həyata keçirilən tədbirlər Azərbaycan dövlətinin hər bir vətəndaşına olan diqqətin bariz göstəricisidir.




### *Yaşlıların sosial problemlərinin*

***həllinə köməklik məqsədilə 2014-cü ildə ”Ahıllara və Tənhalara Dəstək” İctimai Birliyi (ATD İB) yaradılmışdır. Əhalinin sosial müdafiəsi sahəsində dövlət siyasətini təbliğ edən, yaşlı və tənha insanların problemləri ilə bağlı elmi araşdırmalara dəstək verən, müvafiq sahədə maarifləndirmə işi aparan İctimai Birlik fəaliyyəti dövründə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə bir sıra layihələr həyata keçirmiş, yaşlıların sosial problemlərinin həllində yardımçı olmuşdur.***

Bir çox dövlət və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edən, müvafiq beynəlxalq qurumlarla əlaqələr quran Birliyin rəhbərliyi və üzvləri mütəmadi olaraq ahıl və tənha insanlarla görüşür, onların iştirakı ilə xeyriyyə tədbirləri və müzakirələr, seminarlar və dəyirmi masalar, sərgilər və ekskursiyalar təşkil edirlər. Bu sırada ömründə bir dəfə də olsun belə doğum gününü qeyd etmək imkanı olmamış tənha insanların ad günlərinin təşkili, Bilgəhdəki müharibə və əmək veteranları üçün pansionat sakinləri arasında stolüstü oyunlar və kulinariya üzrə yarışların keçirilməsi, heç vaxt yaşadığı məkandan kənara çıxmayan yaşlı və tənha insanların Quba rayonuna səfərinin və mədəni-tarixi yerlərdə üçgünlük gəzintisinin təşkil xüsusilə yaddaqalan tədbirlər olmuşdur. Xalqımızın dini və milli-mənəvi dəyərlərinin təcəssümü olan Ramazan və Qurban bayramları ilə bağlı təşkil olunan xeyriyyə tədbirləri xoş ənənəyə çevrilmişdir. Bu il İctimai Birlik sərt karantin rejimi çərçivəsində kütləvi tədbirlərin qadağan edildiyi bir şəraitdə öz ənənəsinə sadiq qalaraq, müqəddəs Qurban bayramı günlərində ehtiyacı olan ailələri və ahılları xeyriyyəçilik addımı ilə sevindirmiş, təşkilatın rəhbərrliyi və üzvləri aztəminatlı ailələrə baş çəkmiş, qurbanlıq sovqatları 60-dan çox ünvana çatdırmışlar.

1 oktyabr Beynəlxalq Ahıllar Günü ərəfəsində İctimai Bilrlik üç layihəyə imza atmışdır.

### *İlk layihə*

***çərçivəsində Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə maddi ehtiyacı olan ahıl yaşlı və tənha insanlara ərzaq məhsulları ilə yardım göstərilməsi məqsədilə xeyriyyə tədbiri keçirilmiş, paytaxt və ətraf ərazilərdə yaşayan çoxsaylı vətəndaşlar ”Rahat” marketlər şəbəkəsində 50 AZN məbləğində alış-veriş imkanı yaradan bazarlıq kuponları ilə təmin edilmişlər. İkinci layihəmiz ”Qabarli əllərin möcüzələri” adlı xeyriyyə tədbirinin - yaradıcı yaşlı insanların rəsm və əl işlərindən ibarət onlayn sərgi-satış yarmarkasının keçirilməsi ilə bağlı olmuşdur. Sosial şəbəkə istifadəçiləri həyat eşqini qabarlı əlləri ilə ərsəyə gətirdikləri möcüzələrdə bacarıqla və həvəslə ifadə edən ağbirçəklərimizin yaradıcılığı ilə tanış olmuşlar.***

Uzun və mənalı ömür yolu keçmiş, yiyələndiyi ixtisas və sahib olduğu peşə üzrə zəngin həyat təcrübəsi toplamış, nümunəvi fəaliyyəti və şəxsi keyfiyyətləri ilə bu gün cəmiyyətdə kifayət qədər tanınan yaşlı insanlar çoxdur. Lakin bu cür keyfiyyətlərə malik, amma geniş ictimaiyyətə məlum olmayan ahıllarımız daha çoxdur. ”Ahıllara və Tənhalara Dəstək” İctimai Birliyinin növbəti layihəsi bu cür insanları cəmiyyətə tanıtmaq məqsədilə gerçəkləşmişdir. Biz geniş oxucu kütləsinə hər birində 7 məqalə olmaqla kitablar dəsti təqdim etmək və bununla uzun ömür yolu keçmiş, möhkəm ailə qurmuş, layiqli övladlar yetişdirmiş, zəhmətlə çalışmış və ətrafdakıların hörmətini qazanmış, ən başlıcası isə, öz həyat mövqeyi ilə gənc nəslə örnək ola biləcək yaşlı insanları ictimaiyyətə tanıtmaq niyyətindəyik. Layihə üzrə nəşrlərin ”Qarşınızda baş əyirik” adlı ilk buraxılışına ölkənin müxtəlif bölgələrində yaşayan ağsaqqallar və ağbirçəklər haqqında oçerklər daxil edilib.

### *Bu layihəyə imza atmaqla*

***həm ahıllarımıza sevgi və ehtiramımızı ifadə etmiş, həm də gənclərə yaşlı insanların tövsiyələrindən bəhrələnmək imkanı yaratmış oluruq. Ümid edirik ki, ata və analarımız, baba və nənələrimizlə bu cür ünsiyyət cəmiyyətimizin əsas sütunlarından biri olan ailənin möhkəmlənməsi, ailədə sağlam münasibətlərin qorunub saxlanması, yetişməkdə olan gənc nəslin yaşlılara diqqət və qayğı ruhunda tərbiyə olunması işinə kiçik töhfəmiz kimi qarşılanacaq və layihənin davamlı olmasını təmin edəcəkdir. Məlumdur ki, ahıllar özünəməxsus xüsusiyyətlərə, ehtiyaclara, maraqlara və dəyərlərə malik olan yaş qrupuna aid insanlardır. Nəsillərarası dialoqun düzgün formalaşması üçün onların bu göstəricilərini tədqiq etmək olduqca vacibdir.***

Bu məqəsdlə İctimai Bilrlik peşəkar mütəxəssislər cəlb olunmaqla gənclərin ahıllara münasibətini öyrənib təhlil etmək, onların yaşlılara nə cür dayaq olduqlarını müəyyənləşdirmək, yaşlı nəslə neqativ münasibət doğuran səbəbləri aşkarlamaq və düzgün münasibətin yollarını araşdırmaq məqsədilə sosioloji sorğu keçirmək niyyətindədir. Yaşlı insanların sosial problemləri, onların müasir cəmiyyətdə yeri və rolu, digər yaş qrupları ilə qarşılıqlı münasibətləri və s. ilə bağlı məsələlərlə xüsusi elm sahəsi - sosial herontologiya məşğuldur. Tədqiqatımıza bu sahədə çalışan təcrübəli mütəxəssisləri cəlb etmək istəyirik və müvafiq qurumlarla bu istiqamətdə əməkdaşlığa hazırıq. Düşünürəm ki, bu cür tədqiqat işlərinin aparılması olduqca aktualdır.

### *Milli-mənəvi dəyərlərimizə yad olan*

***bu stereotipdən qurtulmaq, sağlam münasibətləri təmin edə biləcək nəsillərarası dialoq formalaşdırmaq üçün xüsusi araşdırmaların aparılması vacibdir. ATD İB ahılların ayrı-ayrı imkanlı hüquqi və fiziki şəxslər tərəfindən himayəyə götürülməsi təcrübəsinə, onlar üçün hüquqi məsləhət xidmətinin inkişafına geniş dəstək vermək, tələbə və məktəblilər tərəfindən ahıl vətəndaşlara evlərində, ictimai yerlərdə xidmət göstərilməsi işinin, ixtisaslaşdırılmış psixoloji tibbi xidmətlərin təşkilində, mədəniyyət ocaqlarında dərnək, bədii özfəaliyyət kollektivləri və maraqlar üzrə klubların yaradılmasında fəal iştirak etmək, ahıl vətəndaşların problemlərinin öyrənilməsinə dair mütəmadi sorğular keçirmək, onların ailədə, uşqlar və yeniyetmələr arasında tərbiyəvi rolunun təbliği məqsədilə təhsil müəssisələrində görüşlər təşkil etmək, gələcəkdə isə xüsusi olaraq ahıllar üçün dövrü nəşr - nəfis tərtibatlı və dolğun məzmunlu dərgi təsis etmək və valideyn himayəsindən məhrum olmuş uşaqlarla birgə yaşayış üçün hər bir şəraiti olan xüsusi sığınacaq təşkil etmək niyyətindədir.***

Biz İctimai Birlik üzvlərinin sayını artırmaq və gənclərdən ibarət könüllülər qrupu yaratmaq barədə də düşünürük.

Ağsaqqallar və ağbirçəklər hörmətli və müdrik adamlar hesab olunurlar. Amma uşaq kimi kövrək, yumşaq qəlbli olan ahılların qayğıya və xoş rəftara ehtiyacı var. Bu insanların qəlbini oxşamaq onlar üçün böyük təsəllidir. Ahıllara dəstək olmaq hər birimizin, xüsusilə də gənclərin mənəvi borcudur. Bu borcu yerinə yetirməklə hər birimiz nəsillərarası dioloqu zənginləşdirmiş oluruq.



*Ələsgər ƏLIOĞLU*

### SƏRNİŞİN QARIŞQALAR...

**Şəhərdən kəndə**
**Dönərkən ata;**
**Kiçik avtobus**
**Alıb Turquta...**
**Bu avtobusa**
**Noğullarını**
**Yığıbdı oğlan...**
**Səhərdən bəri,**
**Çəkilmək bilmir,**
**Küçədən, yoldan...**
**Sürür həvəslə**
**Avtobusunu**
**İrəli-geri.**
**Qarışqalardır**
**Bu avtobusun**
**Sərnişinləri...**

### DƏNİZƏ CUMAN DALĞIC

**Dalğıc şəkli çəkmişdi,**
**Qumun üstə Əzizə.**
**Dalğalara qoşulub,**
**Dalğıc cumdu dənizə...**

### ƏLİ-QOLU CLRMAQLANMIŞ...

**Neçə gündür əli-qolu,**
**Cırmaqlanmış gəzir Baxış.**
**Öyrəndik ki,**
**O, pişiyin**
**Quyruğunu tapdayıbmış...**

### DÖŞƏK

**Çimərliyə gəlmişdik,**
**Həm çimək, həm əylənək.**
**Burda mən suyun üstə,**
**Saldım güllü bir döşək.**

**Sonra da bu döşəyin,**
**Çıxıb üstə uzandım.**
**Ləpələrin qoynunu,**
**Uzanıqlı dolandım...**

**Bu döşəyin içində**
**Nə pambıq, nə yun vardı.**
**Yəqin elə olsaydı,**
**Döşək suda batardı...**

**Ancaq batmırdı döşək-**
**Suyun üstə durmuşdu.**
**Axı onun içinə,**
**Hava doldurulmuşdu!..**

### UÇURUM

**Cığırla dolandım mən.**
**Gül-çiçəkli çəməni.**
**Həm dağ başına çıxdım,**
**Həm də gəzdim dərəni...**
**Birdən gəzdiyim cığır.**
**Buruldu durum-burum.**
**Ciğirin qabağını,**
**Kəsmişdi bir uçurum...**

### DAĞ ÇAYI

**Gün tutub güneyləri,**
**Dikəlibdi dağ çayı.**
**Bahar qarla yemləyib,**
**Kökəlibdi dağ çayı.**

### ƏKİZ PÖHRƏLƏR

**Gilənar ağacının**
**Bir cüt pöhrəsi çıxdı.**
**Bağda hər ikisi də,**
**Eyni bir boyda qalxdı...**

**Baxıb bu pöhrələrə,**
**Turqut dedi bir səhər:**
**-Ay baba,görürsənmi,**
**Əkizdir bu pöhrələr!..**

### BALIQLAR

**Balıqlar üzüb gəzər,**
**Çayda,göldə,dənizdə.**
**Onların arxasınca,**
**Düşməz suya bir iz də...**

### İŞIĞIN DILI

**Çıxıb təkcə gəzməyi,**
**Bacarıram şəhərdə.**
**Maşınlardan qorxmuram,**
**Heç vədə küçələrdə...**
**Qırımızı işıq deyir:**
**Keçiddə ayaq saxla!**
**Sarı deyir:**
**Hazırlaş!**
**Yaşıl deyir:**
**Di adla!**
**A dostlar, öyrənmişəm,**
**Keçməyi hər keçiddən.**
**İndi yaxşı bilirəm,**
**İşığın dilini mən.**

### ÇƏYİRTKƏ

**Tanıyın çəyirtkəni,**
**Boyu bicə tikəni...**
**Yeriməyi xoşlamaz,**
**Üz tutsa hansı yana:**
**Mənzil başına çatar,**
**O, hoppana-hoppana...**

### DƏNİZİN TƏPƏLƏRİ

**Dənizdə fırtına qalxıbdı,**
**Dənizdən təpələr çıxıbdı.**

**Dalğanın hər biri təpədir,**
**Dənizi yerindən tərpədir...**

**Haçan ki,fırtına yatacaq,**
**Təpələr dənizdə batacaq.**

### İZ

**Qarın üstə düşüb bir iz,**
**İzləyirik bu izi biz.**

**Bu iz belə hara gedir,**
**Bizi yora-yora gedir.**

**Dovşan yuva qurub harda,**
**Dayanacaq bu iz orda...**

### TUTUQUŞU

**Tutquşu almışam,**
**Çox məzəli səsi var.**
**Sözü yamsılamağa,**
**Yamanca həvəsi var.**

**Danışıram,**
**Necə də**
**Yamsılayır sözümü.**
**Danışmıram,**
**O,mat-mat**
**Durub döyür gözünü.**

**Bu quşun danışmağa**
**Meyli yamanca çoxdu.**
**Qəribədir ki,**
**Onun**
**Özünün sözü yoxdu...**

### QIZIL SARMAŞIQ

**Qizil sarmaşığa bax,**
**Sanki qızıl ilandı.**
**Bir də baxıb görərsən,**
**Hər nə gəlsə dolandı...**

**Onu yolub atmasan,**
**Zəhmətindən umma bar.**
**İlan kimi sarınıb,**
**Bağ-bostanı qurudar...**

## *Ruslan Abışov: "İnanıram ki, qələbə bizim olacaq"*




***"Yaxşı xəbər görmək arzusu ilə, tez-tez saytları izləyirəm. Dualarımız əsgərlərimizlədir".***

***Qol.az xəbər verir ki, bu sözləri "Sabah"ın futbolçusu Ruslan Abışov öz Feysbuk səhifəsində yazıb.***

***32 yaşlı yarımmüdafiəçi paylaşımında bunları da qeyd edib: "Hələ ki, gücümüz dua etməyə çatır. ürəyimiz prezidentimiz, ordumuz və vətənimizlədir. İnanıram ki, qələbə bizim olacaq. Allah bütün əsgərlərimizi qorusun. Şəhid olan qardaşlarımıza Allah rəhmət eləsin. Vətən sağ olsun!".***

## *Kuman Messiyə təşəkkür etdi*

**"Barselona"nın baş məşqçisi Ronald Kuman komandanın kapitanı Lionel Messiyə təşəkkür edib.**

Qol.az xəbər verir ki, 57 yaşlı mütəxəssis bu addımı argentinalı hücumçunun azarkeşləri və komandanı birliyə səsləməsinə görə atıb. Messi daha əvvəl azarkeşlərə müraciət edərək, bu sözləri demişdi:

"Əgər sizi məyus etdimsə, üzr istəyirəm. Səhvlərim varsa, məsuliyyəti öz üzərimə götürürəm. Hər şeyi "Barselona"nın daha da yaxşı olması üçün etmişəm. Yaşanan anlaşılmazlıqlara artıq son vermək istəyirəm. "Barselona"nın gələcəyi üçün artıq bir olmağımız lazımdır. Yalnız belə olacağı təqdirdə hədəflərimizə çata bilərik".

Kuman isə 33 yaşlı futbolçunun belə bir hərəkətini yüksək qiymətləndirərək, ona təşəkkür edib: "Komandanın kapitanının özünü göstərib, hamını birliyə çağırması çox yaxşı haldır. Ona təşəkkür edirəm. İnanıram ki, hər şey daha sakit olacaq və axarına düşəcək. Messini sevindirmək üçün əlimdə hər bir şəraitin olub-olmadığını bilmirəm. Lionelin parlaması üçün ən yaxşı variantı və yeri tapmaq lazımdır. Messi futbol oynamaq və qazanmaq istəyir".

## *FİDE reytinqi açıqladı*

**Beynəlxalq Şahmat Federasiyası (FIDE) yeni reytinq siyahısını açıqlayıb.**

Qol.az xəbər verir ki, ilk "10-luq"da Azərbaycanın 2 təmsilçisi yer alıb.

Aktivində 2770 xal olan Şəhriyar Məmmədyarov 4 pillə irəliləyib və 7-ci sıraya yüksəlib. 2 765 xalı olan Dünya Kubokunun qalibi Teymur Rəcəbov isə 1 pillə geriləyib və 10-cu yerdə qərarlaşıb. Qədir Hüseynov 2 665 xalla 73-cü, Nicat Abbasov 2 664 xalla 75-cidir. Onların hər ikisi 2 pillə geriləyiblər.

2 654 xalı olan Rauf Məmmədov isə 91 - 93-cü yerləri bölüşdürür. Siyahıya yenə norveçli dünya çempionu Maqnus Karlsen 2 863 xalla başçılıq edir. ABŞ təmsilçisi Fabiano Karuana 2 828 xalla 2-ci, çinli Dinq Liren 2 791 xalla 3-cüdür.

Qadınlardan Günay Məmmədzadə 2 443 xalla 28-ci pilləyə yüksəlib. 2 382 xala malik Gülnar Məmmədova 73-cü sırada yer alıb. 2 376 xalı olan Xanım Balacayeva isə 1 pillə irəliləyərək 82-ci sırada qərarlaşıb.

# "Kardaşyan poz verməklə məşğul olsun" – Şillə kimi cavab

**Azərbaycan-Ermənistan sərhəddindəki vəziyyətlə bağlı Amerikalı porno ulduz Kim Kardaşyan da qalmaqallı paylaşım edib. Erməni əsilli Kim Kardaşyan Azərbaycanı günahlandırması azmış kimi tərbiyəsizcəsinə Türkiyəyini də qınayıb. O, ermənilərin Qarabağda təcavüzə məruz qaldığını iddia edib.**

Əvvəla qeyd edim ki, BMT Nizamnaməsinin 51-ci maddəsi ilə Azərbaycan öz ərazilərini işğaldan azad etmək hüququna malikdir. Bu erməni əsilli porno ulduz utanmazcasına ermənilərin təcavüzə məruz qaldığını necə vurğulaya bilər? İllərdir, ermənilərin işğalı altında qalan ərazilərimiz bizim əzəli ata-baba torpaqlarımızdır. İndi bir erməni fahişəsi çıxıb iddia edir ki, ermənilər təcavüzə məruz qalıb. Amerikada oturub BMT kimi ali bir qurumun Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrdən xəbərsiz olan Kim Kardaşyan yəqin ki, ermənilərin təcavüzə məruz qalmasını qeyd edərkən və bu məsələdə qardaş Türkiyəni də qınayarkən bir məsələni diqqətdən qaçırmışdır ki, erməni vandalizminin mahiyyəti dünyaya bəllidir. Zaman-zaman etibarilə üst qurumlar çərçivəsində Ermənistan tərəfindən Azərbaycanının mədəni irsinin məhv edilməsi, dinc əhaliyə qarşı törədilmiş cinayətlərlə bağlı qəbul edilmiş qətnamələri nəzərdən keçirməsi kifayətdir ki, Kim Kardaşyan ağzını bağlayıb ermənilərin "NAMUS, QEYRƏT NÜMUNƏSİ" olaraq Amerikada yalnız poz verməklə məşğul olsun.



Bu gün ermənilər tərəfindən dinc əhalinin ağır artilleriya qurğularından atəşə məruz qalması beynəlxalq hüququn başqa bir prizmada kobudcasına pozulmasıdır. Azərbaycan və Ermənistan dövlətlərinin hər ikisi 1949-cu il "Müharibə qurbanlarının beynəlxalq hüquqi müdafiəsi haqqında" beynəlxalq konvensiyanın iştirakçısıdır. Ermənistan tərəfindən konvensiyanın müdddəaları kobud şəkildə pozulur. Bu gün mülki əhaliyə qarşı törədilənlər cinayətdir. Mülki əhalinin silahlardan atəşə tutulması, şəxslərin vurulması Ermənistan tərəfindən beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulmasıdır. Beynəlxalq humanitar hüquq müharibə dövründə insan hüquq və azadlıqlarını müdafiə edir, müharibə aparılmasının metod və vasitələrini məhdudlaşdırır, onları reqlamentləşdirir.

Məsələnin digər bir aspekti isə odur ki, müharibə gedə-gedə Livandan və başqa ölkələrdən ermənilər Azərbaycan torpaqlarına yerləşdirilir.

Bu da beynəlxalq hüququn daha bir müstəvidə kobudcasına pozulmasıdır.

**Bütün bunların fonunda erməni əsilli fahişə çıxıb necə iddia edə bilir ki, ermənilər təcavüzə məruz qalır? Qardaş Türkiyənin xəbər aparıcısı Ece Ünerin də dediyi kimi, Kardaşyanın kameralara göstərməyə öyrəşmiş olduğu və bilavasitə bizim də yaxından tanıdığımız böyük bir mənbəyi var. Çıxışlarını edərkən bu mənbəyəmi istinad etdi, görəsən?**

**Rövşən Tahir**

Lənkəran rayon, Xarxatan kənd sakini Rəhimov Hacıbaba İsmayıl oğlunun adın 30 may 1998-ci il tarixdə verilmiş JN:0083, kod 80224038 saylı Torpağın mülkiyyət hüququna dair Dövlət Torpağın Aktı itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran rayon, Veravul kənd sakini Məcidov Raqif Fərhad oğlunun adın 30 may 1998-ci il 10 saylı qərarı ilə verilmiş JN:244, kod 80200048 saylı Torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Quba rayon, Aqrar İslahat Komissiyası tərəfindən 15 avqust 1997-ci il 08 saylı qərarı ilə Quba rayon Alpan kənd sakini Bayramova Zəhra Camat qızının adına verilmiş JN:312A, kod 30306018 Torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Azərbaycan” Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 30.09.2020